

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 18 (24.504)

*16 may 2026-cı il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*




# Böyük Qayıdışın Cəbrayıl səhifəsi

Azərbaycan dövlətinin Vətən müharibəsindən sonrakı mərhələdə əsas prioritetləri sırasında işğaldan azad olunmuş torpaqların hərtərəfli bərpasının həyata keçirilməsi xüsusi yer tutur. Böyük Qayıdışa dair birinci Dövlət Proqramı çərçivəsində ötən dövrdə həm məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, həm də müasir infrastruktur layihələrinin icrası, tarixi-mədəni dəyərlərin bərpası baxımından mühüm nailiyyətlər əldə edilib. Cəbrayıl rayonu da bu proqramın ən intensiv şəkildə icra olunduğu ərazilərdən biridir. İşğaldan azad edildikdən sonra rayonun kənd və şəhərləri mərhələli şəkildə yenidən qurulur və burada məskunlaşma prosesi həyata keçirilir. Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura hər səfəri bu torpaqlarda yeni inkişaf mərhələsinin başlanması ilə nəticələnir. Mayın 9-da həyata keçirilən növbəti səfər də bu baxımdan mühüm və yaddaqalan hadisəyə çevrildi.

Səhifə → 3

## Heydər Əliyev Muzeyi – 103 illik yaddaşın və ehtiramın ünvanı



Səhifə → 2

## Bax biz buradayıq – Zəngilandayıq



Səhifə → 4

## Yeni geosiyasi vəziyyət: ordunun gücləndirilməsi, müdafiə qabiliyyətinin artırılması



Səhifə → 6

## Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş konsert keçirilib



Səhifə → 7

## Firuzə rəngli əfsanə, yaxud qadın ucalığının memarlıq zirvəsi dünya tədqiqatçılarının əsərlərində



Səhifə → 11

# Heydər Əliyev Muzeyi – 103 illik yaddaşın və ehtiramın ünvanı






**İnsanı öz kökünə, torpağına və millətinə bağlayan tellər bəzən, sadəcə, bir cümlə ilə daha da möhkəmlənir: *“Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”* Bu kəlmələr Azərbaycanın müasir tarixinə yalnız bir sitat kimi deyil, bir millətin özünüdərk andı kimi həkk olunub. Çoxumuz üçün bu sözlər eşidiləndə qulaqlarımızda tanış və əzəmətli bir səs duyulur. Mənim üçün isə bu sətirlər uşaqlıq illərinin mavi ekranlarından süzülüb gələn bir heyranlığın, böyük şəxsiyyət Ulu Öndərimiz Heydər Əliyevə duyulan sarsılmaz rəğbətin və sonsuz bir doğmalığın ifadəsidir.**



Bu kəlmələrin hansı sınaqlardan keçərək deyildiyini, o fəxarət hissini Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində olanda daha dərindən dərk edirik. Burada bizi sadəcə, tarix deyil, sanki canlanmağa hazır olan bir xatirə seli qarşılayır.

Muzeyin hər guşəsində zamanın nəbzi bir nöqtədə donub qalıb. Burada bütün saatların əqrəbləri 2003-cü ilin 12 dekabrına, Bakı vaxtı ilə saat yeddiyə səkkiz dəqiqə qalmışa köklənib. Bu sadəcə, təqvimin bir günü, saatın adi bir dəqiqəsi deyil; bu, bir millətin atasını cismən itirdiyi, böyük bir ömrün əbədiyyətə qovuşduğu andır. Muzeydəki saatların məhz həmin anı dondurması Ulu Öndərin fiziki yoxluğunun gətirdiyi sükutu və Ona olan sonsuz ehtiramı hər addımda bizə hiss etdirir.



Zalları dolaşarkən Heydər Əliyevin böyük bir incəliklə çəkdiyi o kiçik rəsm əsəri diqqətimi cəlb etdi. Qardaşının qonşu qızı olan Zərifə xanımın doğum gününə həsr etdiyi bu portret, Onun təkcə polad iradəli bir lider deyil, həm də gəncliyində rəssam olmaq arzusu ilə yaşayan incə ruhlu bir sənətkar olduğunu göstərir. İş otağında çalışarkən istifadə etdiyi əşyalar olan guşəyə gəldikdə isə hər bir imzanın arxasındakı o böyük məsuliyyətdən bəhs edən qələmdanlığını, masasının üzərini nuru ilə aydınladan və indi gənclərin yolunda sönməyən məşələ çevrilən tarixi neft çırağını görürəm.



Lakin bir küncdə dayanan o telefonun sükutu digərlərindən daha dərin eşidilir. O sanki şüşə arxasından bizə pıçıldayır: “Məni görürsünüzmü? İndi burada, bu şüşə arxasında nə qədər sakit, nə qədər hərəkətsiz durmuşam... Amma bir vaxtlar mən bu millətin nəfəsini, həyəcanını və ümidini daşıyırdım. Mən heç susmazdım. 1991-1993-cü illərin o şaxtalı, qaranlıq Naxçıvan gecələrində o böyük insanın əli mənə toxunanda sanki canlanırdım. Mənim simlərimdən keçən hər kəlmə xalqın taleyini təyin edirdi. O, dəstəyi qaldıranda otağa bir inam yayılardı. İndi isə bu muzeydə Onun səsinin, əlinin izini saxlayıram. Zənglərim kəsilib, amma yaddaşım doludur. Mən sadəcə, rabitə vasitəsi deyildim, mən o çətin illərdə xalqla Lider arasındakı ən yaxın sirdaş idim. İndi bu sükutumla sizə o günlərin vüqarını danışıram”.



Muzeyin ən təsirli eksponatlarından biri də Ulu Öndərin 1991-1993-cü illərdə Naxçıvanın ən ağır sınaqlarla üzüzə qaldığı vaxtlarda geyindiyi kostyum dəstidir. Lakin bu geyimi sıradan bir libasdan çıxarıb mənəvi bir zirvəyə ucaldan detal onun cibində gizlənib. Heydər Əliyevin daim qəlbinin üstündə, kostyumun cibində gəzdirdiyi o balaca ölçülü “Qurani-Kərim” sanki onun ən sadiq sirdaşı və sarsılmaz dayağı olub. O, taleyüklü qərarlar verərkən, millətin gələcəyi üçün ağır məsuliyyət daşıyarkən bu müqəddəs kitabı özü ilə daşımaqla sanki mənəvi gücünü və inancını hər şeydən üstün tutduğunu göstərirdi. Bu sadəcə, bir dinə bağlılıq deyil, həm də xalqın mənəvi dəyərlərinə, köklərinə və inancına olan dərin ehtiramın ifadəsi idi.

Burada olan hər guşə bir xatirə, hər eksponat bir dastan olsa da, bir nümunə var ki, onun qarşısında insanın nəfəsi kəsilir, ürəyi qürurla döyünməyə başlayır. Bu, 1990-cı ildə keçirilən o tarixi sessiyada dahi rəhbərin əllərində ucalan üçrəngli bayrağımızdır. Muzeydə həmin bayrağın qarşısında dayananda sanki o sessiya zalındakı coşqunu, insanların gözlərindəki ümidi və rəhbərin sarsılmaz səsini eşidirsən.

Muzeyin qarşısında Ulu Öndərin əzəmətlə ucalan abidəsinin yanında qədim Naxçıvanın aydın səmasında dalğalanan zəfər bayrağımız ekspozisiyada gördüyümüz o tarixi bayrağın sarsılmaz və qüdrətli davamıdır. O gün həmin zalda bir ümid kimi doğan o üç rəng bu gün daha böyük bir vüqarla dalğalanır. Bu mənzərə ruhumuzdakı vətənpərvərlik alovunu daha da coşdurur və bizə bir daha xatırladır: içəridə tarixinə şahidlik etdiyimiz o nur və o bayraq bu gün gələcəyə doğru əmin addımlarla addımlayan yolumuzun əbədi qürur mənbəyidir. Ötən əsrin əvvəlində dahi rəhbərin əllərində göylərə yüksələn bayrağımızı Onun layiqli davamçısı, Müzəffər Sərkərdə İlham Əliyev Şuşada, Laçında dalğalandırdı.

✍ Səmayə RƏSULOVA



# Böyük Qayıdışın Cəbrayıl səhifəsi



## Şükürbəyli dirçəlir, kəndə yeni həyat qayıdır

“Böyük Qayıdış” proqramı çərçivəsində Cəbrayıl rayonunun Şükürbəyli kəndinin yenidən qurulması, yaşayış məntəqəsinə sakinlərin köçürülməsi yalnız sosial-mənəvi deyil, həm də iqtisadi və strateji baxımdan mühüm əhəmiyyət daşıyır. Uzun illər dağıntılar altında qalmış bu ərazilər bu gün mərhələli şəkildə yenidən qurularaq ölkənin iqtisadi, enerji və nəqliyyat sisteminə inteqrasiya olunur. Təqdiredici haldır ki, Şükürbəyli kəndinin yenidən inşası müasir şəhərsalma standartlarına uyğun şəkildə həyata keçirilir. Burada yalnız yaşayış evlərinin tikintisi deyil, həm də sosial infrastrukturun tam kompleksi formalaşdırılır. Fərdi yaşayış evləri ilə yanaşı, məktəb, musiqi məktəbi, iki uşaq bağçası və tibb məntəqəsinin inşası kəndin tam funksional yaşayış məkanına çevrilməsini təmin edir. İlkin mərhələdə 635 evin istifadəyə verilməsi planlaşdırılıb, geri qayıtmaq üçün müraciət edən ailələrin sayının 900-dən çox olması isə soydaşlarımızın doğma el-obada yaşamaq arzusunun real göstəricisidir.

Son 5 illik quruculuq mənzərəsi deməyə əsas verir ki, Cəbrayıl rayonunun Böyük Qayıdış prosesində xüsusi rolu var. Rayon həm coğrafi mövqeyinə, həm də strateji potensialına görə Azərbaycanın yeni inkişaf xəritəsində mühüm yer tutur. Burada həyata keçirilən tikinti işləri təkcə yaşayış məntəqələrinin qurulması ilə məhdudlaşmır, eyni zamanda iqtisadi fəaliyyətin bərpası və yeni inkişaf modellərinin tətbiqini də əhatə edir. Şükürbəyli, Soltanlı və digər kəndlərin dirçəldilməsi istiqamətində həyata keçirilən tədbirlər bölgənin sosial strukturunun yenidən formalaşmasına və demoqrafik tarazlığın bərpasına şərait yaradır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl səfəri rayonun Şükürbəyli kəndinin açılışı ilə əlamətdar oldu, dövlətimizin başçısı sakinlərlə görüşündə yaşayış məntəqəsinin istifadəyə verilməsini ədalətin təntənəsi günü kimi dəyərləndirdi: ***“Bu gün çox gözəl bir gündür, tarixi bir gündür, ədalətin təntənəsi günüdür. Biz – bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda bu torpaqları canlandırdıq”.***

Şükürbəyliyə qayıdış yalnız bir kəndin yenidən qurulması deyil, həm də ümumilikdə, Cəbrayılın yeni iqtisadi və sosial dirçəliş modelinin formalaşmasıdır. Enerji, logistika və kənd təsərrüfatı sahələrində yaradılan imkanlar Böyük Qayıdışın davamlı inkişaf layihəsi olduğunu bir daha nümayiş etdirir.

## Cəbrayıl Azərbaycanın strateji nəqliyyat və enerji mərkəzlərindən birinə çevrilir

Bu gün Cəbrayılda həyata keçirilən müasir infrastruktur layihələri və salınan yeni yaşayış məntəqələri onun Azərbaycanın strateji nəqliyyat və enerji mərkəzlərindən birinə çevrilməsini sürətləndirir. Bu baxımdan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Cəbrayıla səfəri bölgənin enerji sistemində həyata keçirilən yeniliklərlə də yadda qaldı. Səfər çərçivəsində Cəbrayıl rayonunun Soltanlı kəndində 330 kV-luq “Şəfəq” yarımstansiyasının açılışı işğaldan azad edilmiş ərazilərin enerji sisteminə reinteqrasiyası baxımından mühüm hadisə kimi qiymətləndirilə bilər. Bu yarımstansiya “Şəfəq” Günəş Elektrik Stansiyasının istehsal etdiyi enerjinin ölkənin ümumi şəbəkəsinə inteqrasiyasını təmin edir. Layihə Cəbrayılın Böyük Qayıdış çərçivəsində enerji, texnologiya və iqtisadiyyat baxımından strateji mərkəzə çevrildiyini göstərir. Ümumilikdə isə rayonda inşa olunan üç günəş elektrik stansiyasının ümumi gücü 340 meqavat təşkil edəcək. Bu həcmdə enerji istehsalı təkcə Cəbrayılın deyil, bütövlükdə, Qarabağ bölgəsinin enerji təminatında mühüm rol oynaya bilər. Dövlətimizin başçısı Şükürbəyli kəndinə köçən sakinlərlə görüşündə də bu məsələyə xüsusi toxundu, rayonda inşa olunan günəş elektrik stansiyasının böyük potensiala malik olduğunu vurğuladı: ***“Cəbrayılda bizim ən böyük günəş elektrik stansiyaları inşa edilir – üç stansiya, ümumi gücü 340 meqavat. Yəni bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Amma nəzərə alsaq ki, biz artıq Zəngilanda, Laçında, Kəlbəcərdə 300 meqavatdan çox su elektrik stansiyaları işə salmışıq, təqribən, bir-iki il ərzində bu bölgənin Günəş və su potensialı elektrik istehsalı üçün 700 meqavata yaxın olacaq”.***

Cəbrayıl rayonu dövlətimizin həyata keçirdiyi “Böyük Qayıdış” proqramında yalnız yaşayış məkanı kimi deyil, həm də iqtisadi inkişaf mərkəzi kimi planlaşdırılır. Bu baxımdan, “Araz Vadisi İqtisadi Zonası” xüsusi önəm daşıyır. Təxminən, 200 hektar ərazini əhatə edən sənaye zonasında hazırda 20 rezident fəaliyyət göstərir və burada müxtəlif istehsal sahələrinin qurulması regionda yeni iş yerlərinin yaradılmasına imkan verir. Bu da geri qayıdan əhalinin məşğulluğunun təmin olunmasında əsas amillərdən biridir.

Hazırda regionda hökm sürən yeni geoiqtisadi reallıqlar da göstərir ki, Cəbrayılın coğrafi yerləşməsi nəqliyyat-logistika baxımından böyük əhəmiyyətə malikdir. Belə ki, yaxın gələcəkdə rayon ərazisindən keçən və Zəngəzur dəhlizinin tərkib hissəsi olan dördzolaqlı avtomobil yolu regionun beynəlxalq nəqliyyat bağlantılarında əsas arteriyalardan birinə çevriləcək. Yeni yol infrastrukturu Cəbrayılın həm daxili iqtisadi əlaqələrini gücləndirəcək, həm də Azərbaycanın regional tranzit imkanlarını artıracaq. Bundan başqa, aqrar sektor, kənd təsərrüfatı sahəsində də Cəbrayılın geniş potensialı danılmazdır. Münbit torpaqlar və əlverişli iqlim şəraiti burada xüsusilə heyvandarlıq, taxılçılıq və bitkiçilik sahələrinin inkişafı üçün geniş imkanlar yaradır. Bu mənada, “Xudafərin” və “Qız qalası” su anbarları vasitəsilə bölgənin su təminatının yaxşılaşdırılması kənd təsərrüfatının dayanıqlı inkişafına ciddi təkan verəcək.

### *Müasir səhiyyə infrastrukturu, sosial rifah*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Cəbrayıla səfərini əlamətdar edən digər mühüm məqam rayonda müasir səhiyyə infrastrukturunun qurulmasıdır. Hazırda inşası davam edən Cəbrayıl Rayon Mərkəzi Xəstəxanası geri qayıdan əhali üçün sosial təhlükəsizlik sisteminin formalaşdırılmasında əsas rol oynayacaq. Xəstəxana kompleksinin tərkibində poliklinika, diaqnostika, laboratoriya və təcili tibbi yardım bölmələrinin yaradılması regionda tibbi xidmətlərin tam şəkildə əlçatanlığını təmin edəcək, əhalinin sağlamlığının qorunmasına, vaxtında və keyfiyyətli tibbi müdaxilələrin həyata keçirilməsinə mühüm töhfə verəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl rayonuna səfəri belə deməyə əsas verir ki, rayonda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri “Böyük Qayıdış” proqramının mahiyyətini tam şəkildə əks etdirir. Şükürbəyli kəndinin yenidən dirçəldilməsi, müasir sosial infrastrukturun qurulması, enerji və nəqliyyat layihələrinin icrası bölgənin yalnız fiziki olaraq bərpasını deyil, eyni zamanda onun iqtisadi və strateji baxımdan yenidən formalaşmasını təmin edir. Bu proses Cəbrayılı işğaldan əvvəlki vəziyyətinə qaytarmaqla kifayətlənməyəcək, onu daha inkişaf etmiş, dayanıqlı və müasir bir məkana çevirəcək. Eyni zamanda “yaşıl enerji” layihələrinin genişlənməsi, sənaye zonalarının yaradılması, səhiyyə və sosial xidmətlərin formalaşdırılması Cəbrayılın Azərbaycanın yeni inkişaf modelində mühüm rol oynadığını göstərir. Bu gün rayonda atılan hər addım gələcək nəsillər üçün möhkəm təməl yaradır və Böyük Qayıdışın təkcə məskunlaşma deyil, həm də davamlı inkişaf və milli həmrəylik strategiyası olduğunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin dediyi kimi: ***“Beləliklə, bir daha bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq, – Allah bütün şəhidlərimizə rəhmət eləsin, – parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq”.***



**Nail ƏSGƏROV**

# Bax biz buradayıq – Zəngilandayıq



Naxçıvan, Zəngilan, Kotam və Ağbənd. Bu adlar çəkiləndə biz naxçıvanlıların ağlına 36 illik ayrılıq gəlir. Bəli, vaxtilə Azərbaycanı yarımcan edib Zəngəzuru peşkəş verənlər bizim gözlərimizi də yollarda qoydu. 1990-cı ilin çətin günlərində Azərbaycanın əsas hissəsindən Naxçıvana gələn yol Zəngilan rayonunun Ağbənd qəsəbəsində kəsildi. Artıq 6 ildir ki, biz Ağbənddən keçib Ordubad rayonuna – Kotama çatacaq qatarın yolunu gözləyirik. Və əminik, o gələcək. Çünki Vətən müharibəsindəki möhtəşəm qələbədən sonra azad olmuş hər qarış kimi Zəngilan da dirçəlir, yollar uzanır Naxçıvana doğru. Qələbədən sonrakı ilk köç də məhz bu rayona oldu, “ağıllı kənd” layihəsi burada həyata keçirildi. Mayın 10-da – dahi rəhbərin 103-cü doğum günündə isə Zəngilan şəhərində ilk yaşayış kompleksinin açılış mərasimi oldu. Müzəffər Sərkərdə Zəngilan şəhər sakinlərinə öz evlərinin açarını təqdim edəndə illər öncə verilən sözlərin yerinə yetdiyinin şahidi olduq. Bu həm də Ata vəsiyyətinə əməl etmək idi. Onun arzularının çin olması idi. Ali Baş Komandan bunu sakinlərlə görüşündə də dilə gətirdi: ***“Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür və bizim görüşümüzün məhz bu gündə keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi. Biz – onun davamçıları onun vəsiyyətini yerinə yetirdik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik”.***

Vətən müharibəsində bu xalqın göstərdiyi qəhrəmanlıq və birlik onu sübut etdi ki, biz hər çətinliyə dözərik, amma torpağımızın bir qarışını belə güzəştə getmərik. Bu gün biz fəxrlə deyirik ki, Qarabağ azaddır, biz yurdumuza qayıdırıq. Biz bunu bacardıq. Ulu Öndərin davamçısı onun vəsiyyətini yerinə yetirdi və Vətənimizin hər qarış torpağı bizə – xalqımıza məxsusdur. İgid oğullarımız işğalçıları torpaqlarımızdan qovaraq ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdi.

Bu şərəfli tarixə şahid olmaq sevincini yaşayan hər bir azərbaycanlı dövlətinə minnətdarlıq hissi ilə yaşayır. Zəngilan şəhərində öz doğma yurduna dönən insanların ocağında yanan çıraq ruhumuza aydınlıq gətirir. Dövlət başçısının da dediyi kimi: ***“Bu gün hər şey göz qabağındadır”.*** Azərbaycanın dünyadakı nüfuzu artıb. Bəli, artıq bizə olan hörmət, rəğbət, xoş münasibət daha da böyüyür. Bütün bunların səbəbi isə dahi rəhbərin yolunun davam etdirilməsidir. Onun ləyaqətli siyasətinin, sözə və əmələ sadiqliyinin dövlət başçısı tərəfindən davam etdirilməsi və bizim hərbi qələbəmiz. İllərlə səbir etdik, dövlətimizə, Prezidentimizə güvənib səbir etdik. 2020-ci ildə qalib olanda bütün çəkilən zəhmətlərin boşa getmədiyinə şahid olduq.

İşğalın fəsadlarını aradan qaldırmaq və torpağımızı hər qarışına döşənən minalardan təmizləmək də elə döyüşdə qələbə qazanmaq qədər məşəqqət tələb edən iş olsa da, biz həm bu çətinliyin, həm də torpaqlarımızın işğalçılar tərəfindən zəhərlənməsinin fəsadlarını aradan qaldırdıq. Məşhur Bəsitçay qoruğunda olan dünyada ikinci ən böyük çinar meşəsində ağacların çoxu düşmən tərəfindən məhv edilsə də, biz bu torpağa yeni çinarlar əkib təbiəti dirçəltdik. 30 ildə düşmən əlində daşı daş üstə qalmayan Zəngilan özümüzə qayıtdığı gündən cəmi beş il keçməsinə baxmayaraq, bu kiçik zaman kəsiyində buraya həyat qayıtdı – yollar, körpülər, elektrik stansiyaları, su anbarları, sakinlər üçün evlər, məktəblər tikildi. İllər keçdikcə talançı işğalçıların əməllərindən əsər-əlamət qalmır yurdumuzda. Vaxtilə düşmən tərəfindən dağıdılan Zəngilan məscidi yenidən öz tarixinə qovuşub, birinci yaşayış məntəqəsi məhz Ağalı kəndində qurulub. Məmmədbəyli kəndi salınıb. Zəngilan şəhəri əvvəlki çal-çağırlı günlərinə qayıdır. Zəngilanda hava limanı, konqres mərkəzi fəaliyyət göstərir, azad edilmiş ərazilərdə birinci kənd təsərrüfatı müəssisəsi – “Dost Aqropark” məhz burada yaradılıb.

Artıq Zəngilan nəinki Azərbaycanın, bölgənin nəqliyyat mərkəzlərindən birinə çevrilir. İnşasına başlanan dəmir yolunun çəkilişi bitmək üzrədir. Bütün bunlarla bərabər, qonşu İran İslam Respublikasının sərhədində Azərbaycan dövlət başçısının təşəbbüsü ilə Araz çayı üzərində inşa olunan körpü və sərhəd-gömrük infrastrukturu, binaların tikintisi tamamlanmaq üzrədir. Bu yol həm də beynəlxalq nəqliyyat dəhlizi olacaq. Dövlət başçısı öz çıxışında bu sahədə görülən işlərdən və gələcək üçün əhəmiyyətindən də bəhs edib: ***“Buradan keçən həm dəmir yolları, həm avtomobil yolları böyük xeyir gətirəcək. Çünki oraya xidmət edən insanlar işlə təmin olunacaqlar. Bunun Zəngilanın və bütövlükdə, Azərbaycanın iqtisadiyyatına çox böyük töhfəsi olacaq.***

***Ermənistanla burada sərhəd açılandan, Zəngəzur dəhlizi açılandan sonra Zəngilan faktiki surətdə ölkəmizin yeganə rayonu olacaq ki, bunun iki qonşu ölkə ilə sərhəd-keçid məntəqəsi olacaq. Görün, bunun nə qədər böyük əhəmiyyəti var. Çünki bu həm Şərq-Qərb dəhlizidir, Naxçıvandan Türkiyəyə, sonra Avropaya uzanan yoldur, həm də Şimal-Cənub dəhlizidir. Zəngilandan Ağbənd üzərindən İrana və Fars körfəzinə, buradan Naxçıvana keçməklə Culfaya, yenə də Fars körfəzinə. Bu, beynəlxalq bir mərkəz olacaq, əvəzolunmaz mərkəz olacaq”.***

Bütün bunlar olacaq, çünki dövlətimizin başçısı bu günə kimi verdiyi bütün vədləri yerinə yetirib.

Biz əminik ki, yaxın gələcəkdə Bakıdan Zəngilana uzanan dəmir yolu Zəngəzur dəhlizindən keçib Naxçıvanı doğma Vətənə birləşdirəcək. 30 ildən çoxdur ki, bağlı qalan 30 dəqiqəlik məsafə bizi xəyallarımıza qovuşduracaq.

Yenə Bakıdan yola çıxan qatarlar Zəngilanın Mincivan və Ağbənd stansiyalarından keçib Naxçıvana gələcək. Bax həmin gün bizim böyük qələbəmizin təntənəsi yaşanacaq. Bu torpaqların azadlığı və suverenliyi uğrunda can verən oğulların ruhu şad olacaq.

**Ramiyə ƏKBƏROVA**



# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü qeyd edilib



Mayın 10-da Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü qeyd edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları və digər rəsmi şəxslər müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Muzeyin dəyərli eksponatlarına baxış zamanı Ulu Öndər Heydər Əliyevin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən mənalı ömrünün Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib.







# Ali Məclisin növbəti plenar iclası keçirilib



Mayın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 2 məsələnin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib.

Müzakirə olunan məsələ ilə əlaqədar deputatlardan Xəzəngül Orucova və Mövlan Məmmədov çıxış etdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, növbəti məsələ “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir. Bildirilib ki, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa, həmçinin “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa uyğun olaraq Ali Məclisin Daxili Nizamnaməsində dəyişiklik edilməsi zərurəti yaranıb, bununla bağlı qanun layihəsi hazırlanıb və Hüquq siyasəti komitəsinin iclasında müzakirə edilib.



Komitə sədri Əjdər Əliyev layihə barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

Məsələ ilə bağlı deputatlardan Emin Şıxəliyev, Mübariz Bayramov və Mövlan Məmmədov çıxış etdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Bununla da Ali Məclisin iclası başa çatıb.

# Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib

Mayın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə daxil edilən ikinci oxunuşda olan “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsi barədə məlumat verdikdən sonra qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.



Komitə sədri bildirib ki, iclasın gündəliyində digər məsələ “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsidir. Qeyd olunub ki, qanun layihəsi “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”nin “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunundan, həmçinin “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunundan irəli gələn müddəalara uyğunlaşdırılması məqsədi daşıyır.

Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Rahib Kərimov məlumat verib, layihə ətrafında müzakirələr aparıldıqdan sonra komitənin rəyi oxunub, qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Möminə xatun türbəsində bərpa və konservasiya işləri davam edir

Naxçıvanda Möminə xatun türbəsi ərazisində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq ayrılmış vəsait hesabına aparılan bərpa və konservasiya işləri davam etdirilir.

Hazırda türbə ətrafında metal konstruksiyalar quraşdırılır. Bu işlərin aparılması üçün Avstriyanın “Tralsmauer Gerüstbau Gmbh” şirkətinin rəhbəri Mustafa Ərdoğan və şirkətin mütəxəssisləri Naxçıvana gəliblər.

Məlumat üçün bildirək ki, ümumilikdə, bərpa və konservasiya işlərinin həyata keçirilməsi üçün Avstriyanın “Atelier Erich Pummer GmbH” şirkəti ilə müqavilə imzalanıb və ötən il şirkətin mütəxəssisləri Naxçıvana gələrək ərazidə ilkin infrastrukturun qurulmasına başlayıblar, ərazidə hasarlanma işləri aparılıb, kommunikasiya xətləri çəkilib, həmçinin qrunt sularının yaratdığı problemlərin araşdırılması istiqamətində texniki tədqiqatlar aparılıb.

Qeyd edək ki, 2026-cı ildə də Möminə xatun türbəsində bərpa və konservasiya işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 9 milyon 566 min manat vəsait ayrılıb.

Abidənin bərpası və konservasiyası ölkəmizdə elan edilən “Şəhərsalma və Memarlıq İli”ndə həyata keçirilən ən böyük və əhəmiyyətli layihələrdən biridir.



# Yeni geosiyasi vəziyyət:

## ordunun gücləndirilməsi, müdafiə qabiliyyətinin artırılması

**Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfərdən sonra, xüsusilə Silahlı Qüvvələrimizin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, hərbi qüdrətin artırılması, müdafiə qabiliyyətinin gücləndirilməsi prosesi də yeni mərhələyə qədəm qoyub. Bu mənada, 2023-cü ilin sentyabrın 19-20-də müzəffər Ordumuzun həyata keçirdiyi antiterror tədbirləri də respublikamızın ordu quruculuğu istiqamətində qısa zamanda həyata keçirdiyi böyük işlərin nəticəsi idi. Hazırkı mürəkkəb geosiyasi vəziyyət, dünyada baş verən müharibələr, təbii ki, ölkəmizin xarici təhdidlərə qarşı həm hərbi, həm də ideoloji dayanıqlığını daha da artırmaq, sərhədlərin təhlükəsizliyinin təmini məqsədilə ordunun daha da qüdrətləndirilməsini şərtləndirir. Prezident İlham Əliyevin də dediyi kimi: "Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi".**

**Prezident İlham ƏLİYEV:**

*"Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə – hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi. Bu gün bizim Ordumuz müharibə dövründəki ordumuzdan daha da güclüdür, daha da qüvvətlidir."*

Bəli, Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri Azərbaycan Ordusunun gücünü, hərbi sənayemizin müasir inkişafını göstərən mühüm faktorlardır. Bu güc, qüdrət, inkişaf sayəsində otuzillik erməni işğalına son qoyuldu, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik. Son 5 ildə dövlət büdcəsindən əsas xərclərin məhz hərbi sahəyə, müdafiə qabiliyyətinin artırılmasına yönəldilməsi də dövlətimizin postmüharibə dönəmində qələbə eyforiyasına qapılmadan, üstünlüyü əldən verməmək üçün ordu quruculuğunu prioritet məsələ hesab etdiyinin mühüm göstəricisidir. Bu sayədə yeni silahlar və texnika ilə təchiz edilmiş ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artırılıb, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə çoxaldılıb, minlərlə əsgər və zabitdən ibarət yeni Komando Qüvvələri yaradılıb. Dünyanın hərbi gücünə görə sayılıb-seçilən Pakistan, Türkiyə, İsrail, BƏƏ, Çin kimi ölkələri ilə imzalanan hərbi kontraktlar, keçirilən birgə təlimlər Silahlı Qüvvələrimizin döyüş bacarığının yüksəldilməsinə, eləcə də hərbi arsenalımızın müasir silah və texnika ilə təminatına imkan verir.

Müharibədən sonra hərbi gücümüzün artırılmasını həm də Bakıda, Xankəndidə keçirilən möhtəşəm paradlar da təsdiqləyir. Ötən il zəfərin 5-ci ildönümü münasibətilə Bakıda keçirilən parad Azərbaycanın hərbi təchizat xəritəsinin daha da genişləndiyini göstərdi. Paradda ilk dəfə nümayiş etdirilən silahlar, eləcə də yeni alınan texnikalar həm də ölkəmizin bir mənbədən asılı olmadığını sübut etdi. Bəli, Azərbaycan bu gün 10-dan artıq ölkədən silah və texnika alır. Həmin silah və texnikalar sırasında İsrail istehsalı olan PULS modul reaktiv artilleriya sistemi və ona inteqrasiya edilən "Predator Hawk" raketlərini, "IceBreaker" əməliyyat-taktiki raketlərini, Türkiyədən alınan TRLG-230 və TRG-300 kimi yerüstü dəqiq atəş sistemlərini, "Bayraktar TB2" və daha ağır sinif "Akıncı" PUA-ları, Çindən alınan HQ-9BE (FD-2000B) uzunmənzilli zenit-raket kompleksini, Pakistanla 2024-cü ildə əldə olunan razılaşmanın nəticəsi kimi silahlanmaya qəbul edilən JF-17 Block III qırıcılarını və digərlərini göstərmək olar.

Təqdirəlayiq haldır ki, ölkəmiz bu gün təkcə silah idxalını deyil, həm də milli təhlükəsizliyi gücləndirir, müdafiə sənayesinin inkişafını uğurla həyata keçirir. 2026-cı ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8 milyard 717,6 milyon manatın ayrılması da dövlətimizin bu sahəyə verdiyi önəmdən irəli gəlir. Müstəqillik tarixində Azərbaycanın yerli müdafiə təyinatlı sənaye quruculuğuna nail olması, təxminən, 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsalını reallaşdırması son dərəcə qürurverici haldır. Bu sahədə yerli şirkətlər qurulur, xarici tərəfdaşlarla əlaqələr genişləndirilir, ən müasir çağırışlara cavab verən texnologiyaların tətbiqi ilə istehsalın həcmi artırılır. Təsadüfi deyil ki, ötən il ölkəmiz 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edib ki, bunların bir hissəsi Azərbaycan Silahlı Qüvvələrinin arsenalına, bir hissəsi isə ixraca yönəldilib. Hazırda Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir. Qazanılan önəmli nailiyyətlərdən biri də dünyanın aparıcı müdafiə sənayesi şirkətləri ilə Azərbaycanda birgə müəssisələr yaradılmasıdır ki, burada həm pilotsuz uçuş aparatları, artilleriya qurğuları, həm də digər vasitələr, silah-sursat istehsalı nəzərdə tutulur.

Ümumilikdə, bu tədbirləri həyata keçirməkdə əsas məqsəd daxili istehlakı daxili istehsalla maksimum təmin etmək, böyük sənaye sahəsi yaratmaq, müasir kadr potensialını formalaşdırmaqdır. Digər tərəfdən, yaxın gələcəkdə ixrac imkanlarını genişləndirərək müdafiə sənayesinə, eyni zamanda gəlir gətirən sahə kimi yanaşmaq əsas hədəflərdəndir. Nəzərə alsaq ki, dünyada müharibələrin, münaqişələrin sayı durmadan artır və bu da, təbii ki, silah, texnika satışında qiymətlərin kəskin şəkildə artımına səbəb olur, o zaman respublikamızın bu addımı olduqca mütərəqqidir. Beləliklə, yaxın gələcəkdə Azərbaycan silah-sursat istehsalını gücləndirməklə ixrac imkanlarını genişləndirərək həm də yaxşı qazanc əldə edə bilər. Prezident İlham Əliyev bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də bu istiqamətdə hazırkı əsas məqsədin ixracı maksimum səviyyəyə yüksəldərək alternativ valyuta mənbəyi yaratmaq olduğunu vurğuladı: ***"Yenə də deyirəm, ilkin mərhələdə məqsəd ancaq idxaldan asılılığı azaltmaq idi. Bu gün isə biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq. Çünki dünyada, əfsuslar olsun ki, müharibələrin sayı artır, hərbi təyinatlı məhsullara tələbat artır. Onların qiyməti kəskin artıb. İlk növbədə, sursatların qiyməti kəskin artıb. Ona görə bu bizim üçün alternativ valyuta mənbəyi ola bilər və qoyduğum qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır".***

Azərbaycanın Vətən müharibəsi də daxil olmaqla son 5 ildən artıq dövrdə əldə etdiyi bütün nailiyyətlərin, uğurların təməlində, sözsüz ki, siyasi iradə, güclü iqtisadiyyat və qüdrətli ordu faktoru dayanır. Prezident İlham Əliyevin bu faktorlar üzərində həyata keçirdiyi siyasi xəttin mükəmməliyi həm də onun strateji düşüncəyə və praqmatik məharətə əsaslanması ilə əlaqədardır. Başqa sözlə, ölkəmiz atdığı hər addımını təkcə bu gün üçün deyil, gələcək üçün də dəyərə çevirməyi hədəfləyir. Sabahı bu gün deyil, dünən düşünür və buna uyğun addımları da məhz dünən atır. Nəzərə alsaq ki, hazırda Cənubi Qafqazda sülh və əməkdaşlıq mühiti formalaşmaqdadır, eləcə də Zəngəzur dəhlizi reallaşacaq, o zaman bəzi Qərb dairələrinin qısqanc münasibətilə davamlı üzləşəcəyimiz qaçılmazdır. Belə olan halda ölkəmizin hərbi və müdafiə gücünün artırılmasının davamlı olaraq ön planda dayanmasını olduqca praqmatik yanaşma kimi dəyərləndirmək olar. Haqlı bir fikir formalaşıb ki, sülh istəyirsənsə, mütləq müharibəyə hazır olmalısan. Bəli, Cənubi Qafqazdakı son 5-6 illik geosiyasi mənzərə, bölgəyə dayanıqlı sülhü müharibə yolu ilə gətirməyi bacaran Azərbaycanın hərbi-siyasi məharəti timsalında bu fikrin nə dərəcədə doğru olduğunu görmək çətin deyil. Başqa sözlə, 8 noyabr olmasaydı, 8 avqust da, yəqin ki, olmayacaqdı. Prezident İlham Əliyevin dediyi kimi: ***"Həm Ermənistanla şərti sərhəddə, həm də Rusiya sülhməramlılarının yerləşdiyi ərazidə başqa tədbirlər görməyə məcbur olduq. Həm də bunu heç kimə və heç nəyə məhəl qoymayaraq etdik, çünki etməli olduğumuzu bilirdik. Əgər bunu etməsəydik, heç bir 8 avqust olmazdı. İndiyədək heç bir sülh də olmazdı və separatçılar bu günədək özlərini qorunmuş hiss edərək və Azərbaycan dövlətinə meydan oxuyaraq sərbəst hərəkət edərdilər".***

**Nail ƏSGƏROV**



# Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş konsert keçirilib





Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə təşkil edilən silsilə tədbirlər çərçivəsində möhtəşəm konsert proqramı baş tutub. Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə reallaşan tədbir mayın 10-da “Saat Meydanı” Turistik İstirahət Mərkəzinin ərazisində təşkil olunub.

Konsert proqramı həm şəhər sakinləri, həm də şəhərin qonaqları üçün əsl bayram əhval-ruhiyyəsi yaradıb. Gecədə Naxçıvan Dövlət Filarmoniyasının peşəkar solistləri ilə yanaşı, Azərbaycan musiqi sənətinin tanınmış simaları çıxış edərək tamaşaçılara unudulmaz anlar yaşadıblar. Xalq artistləri Samir Cəfərov və Gülyaz Məmmədova, Əməkdar artist Nuriyyə Hüseynova, IV Televiziya Muğam Müsabiqəsinin qalibi Sərxan Bünyadzadə və sevilən ifaçı Şəmistan Əlizamanlı öz zəngin repertuarları ilə bayram gecəsinə rəng qatıblar.

Proqram çərçivəsində səsləndirilən milli musiqilər, muğam inciləri və müasir bəstəkarların əsərləri Azərbaycanın zəngin mədəni irsini bir daha nümayiş etdirib. Müasir səhnə tərtibatı, işıq və səs effektləri ilə müşayiət olunan konsert yüksək zövqlə hazırlanan musiqi bayramına çevrilib. Bu möhtəşəm gecə həm milli-mənəvi dəyərlərimizə sadiqliyin, həm də Ümummilli Liderin əziz xatirəsinə bəslənən sonsuz ehtiramın parlaq ifadəsi olub.







# Naxçıvanda “Şərqin qapısı” Teatr Festivalı keçirilib



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının təşkilatçılığı ilə Naxçıvanda Ulu Öndər Heydər Əliyevin 103 illiyinə və Naxçıvan teatrının 143 illiyinə həsr olunmuş “Şərqin qapısı” Teatr Festivalının rəsmi açılış mərasimi keçirilib.

Festivaldan əvvəl iştirakçılar Heydər Əliyevin abidəsini ziyarət edərək Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad edib, abidə önünə gül dəstələri düzüblər.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Həsən Seyidov Ulu Öndər Heydər Əliyevin teatr və ümumilikdə, milli mədəniyyətimizin inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs edib. O bildirib ki, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması və mədəniyyətimizin inkişafı istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət mədəniyyət və incəsənət xadimlərinə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsidir.

Həmçinin qeyd olunub ki, 7 may 2026-cı il tarixdə imzalanan sərəncamlarla bir qrup incəsənət xadiminə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü və mükafatlarının təqdim edilməsi sənət adamlarına verilən yüksək dəyərin növbəti təzahürüdür. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının mədəniyyət və incəsənət nümayəndələrinin də yer alması xüsusi vurğulanıb.

Daha sonra çıxış edən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru Mir Qabil Əkbərov çıxış edərək festivalın Naxçıvan teatr mühiti üçün əhəmiyyətindən danışıb, tədbirin teatrlararası yaradıcılıq əlaqələrinin inkişafına mühüm töhfə verəcəyini bildirib.

Mərasimin bədii hissəsində festival üçün xüsusi hazırlanmış “Naxçıvan təranələri” və “Şərqin qapısı” mahnıları teatrın gənc aktyorları Seyfəddin Məmmədli, Ləman Vəlizadə və Şəbnəm Qaybalıyeva tərəfindən ifa olunub.

Tədbirin davamında Naxçıvan teatrının aktyorlarının təqdimatında “Şüuraltı kölgələr” tamaşasından bir parça nümayiş etdirilib və tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Festival proqramına uyğun olaraq keçirilən panellərdə sənətşünaslıq üzrə fəlsəfə doktoru, teatrşünas Elçin Cəfərov “Rəqəmsal dövrdə teatrın transformasiyası, süni intellekt və teatr” mövzusunda çıxış edib. Panel zamanı müasir teatr prosesləri, rəqəmsal texnologiyaların səhnə sənətinə təsiri, süni intellektin teatr estetikasında yaratdığı yeni yanaşmalar və gələcək perspektivlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüş interaktiv müzakirələr və fərqli üslublarda təqdim olunan maraqlı eksperimentlərlə yadda qalıb. İştirakçılar teatrın müasir dövrdə keçirdiyi transformasiya prosesinə dair suallar ünvanlayıb, müxtəlif yaradıcı yanaşmalar nümayiş etdirilib.






11 may tarixində Ulu Öndər Heydər Əliyevin 103-cü ildönümünə və Naxçıvan Dövlət Milli Dram Teatrının 143 illiyinə həsr olunmuş “Şərqin qapısı” Teatr Festivalının bağlanış mərasimi keçirilib.

Festivalın bağlanış mərasimində ölkənin müxtəlif teatr kollektivləri S.Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı, Azərbaycan Dövlət Pantomima Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrı festivalda nümayiş etdirdikləri tamaşalara görə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı tərəfindən xüsusi təşəkkürnamələrlə təltif olunublar.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov “Şərqin qapısı” Teatr Festivalının ölkənin teatr mühitində mühüm mədəni hadisə olduğunu vurğulayaraq Naxçıvan teatr kollektivini bu mötəbər sənət bayramının uğurla təşkil olunması münasibətilə təbrik edib. O, festival münasibətilə hazırlanmış xüsusi hədiyyəni C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru Mir Qabil Əkbərova təqdim edib.

Bağlanış mərasimindən sonra tamaşaçılara C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının təqdimatında dahi bəstəkar Üzeyir Hacıbəyovun “O olmasın, bu olsun” musiqili komediyası əsasında hazırlanmış tamaşa nümayiş etdirilib. Səhnə əsəri tamaşaçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

Bundan başqa, 8-11 may tarixlərini əhatə edən “Şərqin qapısı” Teatr Festivalı çərçivəsində müxtəlif tamaşalar, ustad dərsləri, panel görüşlər və yaradıcılıq müzakirələri təşkil olunub. Festivalın əsas məqsədi teatr sənətinin inkişafına töhfə vermək, yaradıcı kollektivlər arasında sənət əlaqələrini genişləndirmək və milli teatr ənənələrinin təbliğini gücləndirmək olub.

### *Festival mənə öz evimdəymişəm kimi hiss etdirdi*

Naxçıvanda mədəniyyət tarixinə keçəcək günlər yaşanıb. Şəhər ilk dəfə ev sahibliyi etdiyi “Şərqin qapısı” teatr festivalı ilə sənətsevərləri bir araya gətirib. Festivalın ən maraqlı qonaqlarından biri isə Türkiyədən gələn aktyor, müəllim və bələdiyyə konservatoriyasında teatr bölməsinin rəhbəri kimi tanınan Avni Rakopdur.



Samsun şəhərindən gələn qonağımız Naxçıvan Dövlət Milli Dram Teatrının ev sahibliyi etdiyi bu festivalın əhəmiyyətini və duyğularını bizimlə bölüşdü: “Naxçıvanda olmaq çox fərqli və unudulmaz bir təəssüratdır. Burada özümü sanki qonaq yox, illərdir yaşadığım doğma evimdəki kimi çox rahat və səmimi hiss edirəm. İlk dəfə teatr festivalının keçirilməsi sənət adına böyük hadisədir. Hesab edirəm ki, “Şərqin qapısı” teatr festivalı həm mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi, həm də teatr sənətinin ortaq gələcəyi üçün misilsiz bir imkandır”.

Avni Rakop yerli sənət adamları ilə qurduğu səmimi ünsiyyətdən də böyük məmnunluqla bəhs etdi: “Burada yerli aktyorlarla geniş söhbət imkanımız oldu. Sənətin dili birdir və biz bu dialoq zamanı bir daha əmin olduq ki, teatr sərhəd tanımır. Həm indi, həm də gələcəkdə bir-birimizə yaradıcılıq yolunda hər zaman dəstək olacağımızı, bu sənət körpüsünü daha da möhkəmləndirəcəyimizi vurğuladıq”.

### *Teatra olan sevgi varsa, hər şey həll olunur*

Naxçıvanda keçirilən Teatr Festivalı çərçivəsində qardaş ölkədən və Azərbaycanın müxtəlif bölgələrindən gələn sənət adamları festivalın əhəmiyyətindən danışıblar. Festivalın qonaqlarından biri, Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının Yaradıcılıq Şöbəsinin müdiri, Azərbaycan Respublikasının Əməkdar artisti Nicat Kazımov “Şərq qapısı” ilə təəssüratlarını bölüşüb. Əməkdar artist bildirib ki, belə festivalların keçirilməsi teatr sənətinin inkişafı baxımından olduqca önəmlidir: “Çox təqdirəlayiq haldır ki, belə bir Teatr Festivalı keçirilir. Ömrünün 35 ilini teatra həsr etmiş bir insan kimi deyə bilərəm ki, bu məni çox sevindirir. Bizə bildirildi ki, növbəti illərdə də festivalın keçirilməsi nəzərdə tutulur. Ümid edirəm ki, gələcəkdə mənim tamaşam da bu festivala dəvət olunar”.



Nicat Kazımov vurğulayıb ki, teatrın inkişafı üçün əsas amillərdən biri tamaşaçı auditoriyasının formalaşdırılmasıdır: “Mən istəyirəm ki, həm Bakıda, həm də digər bölgələrimizdə tamaşaçı yetişsin. Tamaşaçıya keyfiyyətli tamaşa təqdim etmək lazımdır”.

Əməkdar artist qeyd edib ki, festival çərçivəsində Bakıdan gələn üç teatr truppasının çıxışları Naxçıvan tamaşaçılarına təqdim olunub. O, aktyorların səhnəyə olan sevgisinin xüsusi diqqət çəkdiyini bildirib: “Teatr aktyorlarının çıxışında mənim üçün ən qiymətli məqam onların gözlərindəki teatra olan sevgidir. Onlar nömrələrini böyük sevgi ilə icra edirlər. Əgər həvəs və sevgi varsa, hər şey həll olunur. Bu isə o deməkdir ki, teatr günbəgün daha böyük zirvələri fəth edəcək”.



**“Şərq qapısı”**

# Genetik modifikasiya olunmuş məhsullar insanlıq üçün nə vəd edir?

*Qida təhlükəsizliyi gündəliyi*



Müasir dövrdə qida təhlükəsizliyi ilə texnologiya arasında qarşılıqlı inteqrasiya güclənmiş və bu sahələr bir-birini tamamlayan strateji komponentlərə çevrilmişdir. Bu birliyin ən çox müzakirə edilən, bəzən qorxu, bəzən isə ümidlə qarşılanan adı GMO-dur. Bəs GMO, əslində, nədir? Onlar sağlamlığımız üçün təhdiddir, yoxsa bəşəriyyəti aclıqdan xilas edəcək yeganə çıxış yolu?

GMO (genetik modifikasiya olunmuş orqanizm) canlının genetik kodunun laboratoriya şəraitində, təbiətdə baş verməsi mümkün olmayan şəkildə dəyişdirilməsidir. Bu prosesdə bir canlının istənilən özəlliyini daşıyan gen fraqmenti alınaraq digər canlının DNT zəncirinə "kopyalanır". Məsələn, pomidorun daha uzun müddət təzə qalması üçün ona soyuğadavamlı balıq geninin və ya zərərvericilərə qarşı müqavimətli bakteriya geninin köçürülməsi bu texnologiyanın məhsuludur.

Keçmişdən bu günümüzə qədər insanlar tərəfindən genetik seleksiya nəticəsində yeni heyvan cinsləri və bitki sortları yaradılmış, həmçinin mövcud orqanizmlərin kənd təsərrüfatı baxımından vacib əlamətlərinin inkişaf etdirilməsi həyata keçirilmişdir. Lakin genetik seleksiya zamanı heyvan cinsləri və bitki sortlarında istədiyimiz əlamətin seçilməsi 10-15 il vaxt tələb edir ki, bu da zaman baxımından heç də az deyil və qida istehsalında müəyyən problemlərin yaranmasına səbəb ola bilər. Həmçinin dünya əhalisinin artması nəticəsində qida çatışmazlığının yaranması da ən vacib amillərdəndir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Qurumunun (FAO – Food and Agriculture Organization) məlumatına görə, hazırda dünyada 870 milyon insan xroniki aclıqdan əziyyət çəkir. Dünya alimləri yetərincə qidalanmayan insanların sayının qarşıdakı illərdə daha da artacağını güman edirlər. Proqnozlara görə, 2050-ci ilədək dünya əhalisinin sayı 9 milyardı ötəcək və nəticədə, qlobal ərzaq çatışmazlığı özünü daha çox hiss etdirəcək. Bu təhlükənin qarşısının alınması üçün alimlər tərəfindən irəli sürülən çıxış müasir biotexnologiya metodlarından istifadə edərək genetik modifikasiya olunmuş məhsulları istehsal etməkdir. Bütün bunları nəzərə alaraq alimlər müxtəlif genetik və biotexnoloji metodların hesabına yüksək məhsuldarlığa malik, xüsusilə ətraf mühit amillərinə və zərərvericilərə qarşı davamlı orqanizmlər yaratmağı qarşılarına məqsəd qoyublar.

Sadalananlar fonunda potensial həll yollarından biri həm suvarılan, həm də suvarılmayan torpaqlarda məhsuldarlığı artırmaq və ekoloji streslərə daha dözümlü olan yeni sortlar yaratmaq üçün məhsulların təkmilləşdirilməsidir. Genetik modifikasiya olunmuş orqanizmlərin (GMO) yaradılması və kütləvi istehsalına XX əsrin 70-ci illərindən başlanılmış və günümüzə qədər davam etdirilməkdədir.

Qeyd etmək lazımdır ki, GMO mənşəli qidaların qida təhlükəsizliyi baxımından insan sağlamlığına təsiri daim müzakirə mövzusu olmuşdur. Dünyada GMO-lu qidaların istehsalına tələbatın artmasına əhali sayının artması və münbit torpaqların az olmasından əlavə, bir sıra digər amillər, o cümlədən bioyanacaq və xammal istehsalına artan tələbat, sürətlənmiş şəhərləşmə, münbit torpaqların çölləşməsi, şoranlaşma və erroziyası, qlobal iqlim dəyişikliyi və su ehtiyatlarının azalması da təsir edir.

Hazırda birbaşa dəyişiklik vasitəsilə yaradılmış GMO məhsullarına, əsasən, alma, soya, qarğıdalı, pambıq, badımcan, kartof, lobya, yemiş, düyü, şəkər çuğunduru, şəkər qamışı, şirin bibər, buğda və pomidor daxildir. Bəzi meyvələrin isə genetik strukturunun mürəkkəb olması və əlavə olaraq iqtisadi marağın yüksək olması səbəbindən genləri hələki dəyişdirilməyib.

Gen mühəndisliyi təkcə qida sahəsində deyil, dərman sənayesi və tibb sahəsində əvəzedilməz rol oynayır. İstər vaksinlərin və farmaseptik proteinlərin istehsalında, istərsə də xəstəliklərin müalicəsi üçün aparılan elmi-tədqiqat işlərində gen mühəndisliyi metodlarından geniş şəkildə istifadə edilir.

Gen mühəndisliyi metodlarının tətbiqinin həm qida, həm də qeyri-ərzaq sektorunda geniş yayılması və gələcəkdə törədə biləcəyi fəsadlar dünya ictimaiyyətində ciddi narahatlıqlara səbəb olur. Hər hansı bir orqanizmin genomuna edilən modifikasiyalar orqanizmin metabolizmində, böyümə sürətində və ətraf mühitin təsirlərinə qarşı verəcəyi reaksiyalarda dəyişikliklərə yol aça bilər. Belə ki, genoma inteqrasiya edilmiş yeni genlər orqanizmin ümumi genom konfiqurasiyasını dəyişdirərək normal şərtlər altında aktiv olmayan bioloji prosesləri aktivləşdirərək toksik maddələrin istehsalına təkan verə bilər. Bu genetik dəyişikliklər həm GMO-nun özünə, həm də yaşadığı təbii mühitə, eyni zamanda ondan birbaşa və ya dolayı yolla istifadə edən insanlara öz təsirini göstərə bilər. İnsan sağlamlığına mənfi təsir göstərə biləcək ən önəmli risk mənbəyi insanların təbiətdə mövcud olmayan yeni allergenlərə məruz qalması və bağırsaq florasında antibiotiklərə müqavimətli olan yeni bakteriyaların ortaya çıxmasıdır.

GMO-ların potensial riskləri istər elmi-tədqiqat institutları, istərsə də kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən biotexnologiya şirkətləri tərəfindən ətraflı şəkildə təhlil edilməmişdir. Bütün hallarda genetik modifikasiya olunmuş və təbii qida məhsullarının keyfiyyət və təhlükəsizlik göstəriciləri müqayisəli şəkildə araşdırılaraq elmi əsaslara dayanan risk qiymətləndirilməsi aparılmalı və ictimaiyyətin narahatlığına son verilməlidir. İstehlakçının ən böyük hüququ isə məlumatlı olmaqdır. Məhz bu səbəbdən beynəlxalq standartlar məhsulların üzərində "GMO tərkiblidir" və ya "GMO-suzdur" (Non-GMO) etiketlərinin olmasını tələb edir. Bu sahədə mövcud olan potensial risk faktorları bir çox ölkələri genetik modifikasiya olunmuş məhsulların istehsalına və idxalına qismən və ya tam məhdudiyyətlərin gətirməsinə vadar etmişdir.

Bu gün bir çox inkişaf etmiş ölkədə, o cümlədən Azərbaycanda GMO-nun dövriyyəsi və istifadəsi qanunlarla ciddi şəkildə tənzimlənməkdədir. GMO mənşəli bitki məhsullarının satışı və istifadəsinə Çin, Cənubi Afrika, Avstraliya, Kanada və s. kimi ölkələrdə də icazə verilir. Avropada GMO mənşəli bitkilərin dövriyyəsinə çox ciddi nəzarət edilir. Belə ki, bu kimi ölkələrdə beynəlxalq reqlamentlərə əsasən qida və yem kimi istifadə olunan GMO-ların etiketlənməsi və onların tarladan mağazaya qədər izlənilməsi (traceability) qaydaları tətbiq edilir. Avropa Birliyinin geni dəyişdirilmiş qida və yem məhsulları haqqında ən fundamental qanunvericilik aktı olan 1829/2003 saylı reqlamentində tərkibində 0,9,%-dən çox GMO olan hər bir məhsulun müvafiq qaydada etiketlənməsi məcburidir.

Ölkəmizdə isə mövcud qanunvericiliyə əsasən Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının istehsalına, emalına və dövriyyəsinə həmin məhsullar qanunvericilikdə nəzərdə tutulmuş qaydada qeydiyyata alındıqdan sonra icazə verilir.

Buradan aydın olur ki, nəticə etibarilə, ölkəmizə yalnız qeydiyyata alınmış genetik modifikasiya olunmuş orqanizmlər və yem məhsulları idxal oluna bilər. GMO qida məhsullarının isə idxal edilməsi, istehsalı, dövriyyəsi yolverilməzdir və idxal olunan qida məhsulları müvafiq laborator müayinələrə cəlb olunaraq bu istiqamətdə yoxlama-nəzarət tədbirləri daha da gücləndirilmişdir.

## GMO istehsal edən şirkətlərin siyahısı

| S/n | Şirkət adları | Ölkələr |
|---|---|---|
| 1. | Monsanto | ABŞ |
| 2. | Bayer CropScience | Almaniya |
| 3. | Syngenta Seeds | İsveçrə |
| 4. | Pioneer Hi-Bred İnternational | ABŞ |
| 5. | DOW AgroSciences LLC | ABŞ |
| 6. | Agritope İnc | ABŞ |
| 7. | Zeneca Seeds | ABŞ |
| 8. | DuPont Canada Agricultral Products | Kanada |

## Geni dəyişdirilmiş bitkilərin siyahısı

| S/n | GMO-lu bitkilərin adları |
|---|---|
| 1. | Əkin yoncası (Medicago sativa) |
| 2. | Alma (Malus x Domestica) |
| 3. | Kanola (Brassica napus) |
| 4. | Lobya (Phaseolus vulgaris) |
| 5. | Qərənfil (Dianthus caryophyllus) |
| 6. | Adi kasnı (Cichorium intybus) – Dərman bitkisi |
| 7. | Pambıq (Gossyium hirsutum L.) |
| 8. | Sürünən tarla otu (Agrostis stolonifera) |
| 9. | Badımcan (Solanum melongena) |
| 10. | Evkalipt (Eucalyptus sp.) |
| 11. | Kətan (Linum usitatissimum L.) |
| 12. | Qarğıdalı (Zea mays L.) |
| 13. | Yemiş (Cucumis melo) |
| 14. | Papaya (Carica papaya) |
| 15. | Petunya (Petunia hybrida) |
| 16. | Gavalı (Prunus domestica) |
| 17. | Xardal (Brassica rapa) |
| 18. | Qovaq (Populus sp.) |
| 19. | Kartof (Solanum tuberosum L.) |
| 20. | Düyü (Oryza sativa L.) |
| 21. | Qızılgül (Rosa hybrida) |
| 22. | Saflor (Carthamus tinctorius L.) |
| 23. | Soya (Glycine max L.) |
| 24. | Balqabaq (Cucurbita pepo) |
| 25. | Şəkər çuğunduru (Beta vulgari) |
| 26. | Şəkər qamışı (Saccharum sp) |
| 27. | Şirin bibər (Capsicum annuum) |
| 28. | Tütün (Nicotiana tabacum L.) |
| 29. | Pomidor (Lycopericon esculentum) |
| 30. | Yumşaq buğda (Triticum aestivum) |

GMO mənşəli məhsulların məhsuldar və iqtisadi baxımdan sərfəli olmasına baxmayaraq, onların insan sağlamlığına və ekosistemə xeyri və ya vura biləcəkləri potensial ziyanı elmi-tədqiqat müəssisələri tərəfindən hələ də tam tədqiq edilmədiyindən bu cür məhsulların təhlükəsizlik aspektləri sual altındadır. Genetik seleksiya yolu ilə seçilmiş bitki və heyvanlardan, yəni heç bir gen mühəndisliyinin və biotexnoloji metodların manipulyasiyasına məruz qalmamış orqanizmlərdən hazırlanmış qidaların isə tam təhlükəsiz olması insan sağlamlığı baxımından önəmli yer tutur və istehlakçılara ekoloji təmiz kənd təsərrüfatı məhsullarından istifadə edilməsi tövsiyə olunur.

**Orxan ORUCOV**
***Naxçıvan Muxtar Respublikası***
***Qida Təhlükəsizliyi Agentliyinin***
***Qida zəncirinə nəzarət şöbəsinin müdiri***

# Naxçıvanda kümçülərə 50 qutu ipəkqurdu toxumu paylanılıb

"Son dövrlər Naxçıvan Muxtar Respublikasında aqrar sektorun digər sahələrində olduğu kimi, baramaçılığın bərpası və inkişafı istiqamətində də ciddi canlanma müşahidə olunur. Bu sahədə atılan hər bir addım təkcə bugünkü məhsuldarlığı təmin etmir, həm də gələcəkdə əldə olunacaq yüksək nəticələrin möhkəm təməlini qoyur. Xüsusilə qeyd edilməlidir ki, uzunillik fasilədən sonra 2024-cü ildə muxtar respublikada baramaçılıq ənənələrinin yenidən bərpasına başlanılıb. Həmin il pilot layihə çərçivəsində gətirilən 30 qutu ipəkqurdu toxumu inkubasiya prosesindən keçirilərək təmənnasız şəkildə kümçülərə paylanılıb və nəticədə, 1119 kiloqram yaş barama istehsal edilib".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Rübabə Hüseynzadə deyib.

O qeyd edib ki, bu uğurlu başlanğıc 2025-ci ildə daha da genişləndirilərək davamlı xarakter alıb. Belə ki, həmin il 40 qutu ipəkqurdundan 1757 kiloqram yaş barama əldə olunub ki, bu da cəmi bir il ərzində məhsuldarlıqda 17 faiz artım deməkdir. Bu statistik göstəricilər seçilən inkişaf strategiyasının nə qədər doğru və effektiv olduğunu bir daha təsdiq edir. Həyata keçirilən sürətli bərpa prosesi nəticəsində Naxçıvan orta məhsuldarlıq göstəricisinə görə iki il ardıcıl olaraq ölkə üzrə Zərdab rayonundan sonra ikinci yerə yüksəlib.





"Bu nailiyyətlər "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində görülən məqsədyönlü tədbirlərin bariz nümunəsidir. Müsbət tendensiyanın davamı olaraq cari ildə muxtar respublikaya 50 qutu ipəkqurdu toxumu gətirilib. Toxumlar əvvəlcə Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunda inkubasiyaya qoyulub və daha sonra yenidən əvəzi ödənilmədən kümçülərə paylanılıb. Bu addım regionda baramaçılığın daha da kütləviləşməsinə və məhsul həcminin artmasına xidmət edəcək", – deyə nazirliyin sektor müdiri əlavə edib.

# Naxçıvanın enerji potensialında kadr hazırlığı və yeni perspektivlər

***Energetika sahəsi sürətlə dəyişir və bu dəyişimin mərkəzində artıq yeni texnologiyalarla işləməyi bacaran gənc mütəxəssislər dayanır. Dünyada "yaşıl enerji"yə keçid, rəqəmsallaşma və innovativ həllər bu sahədə həm yeni imkanlar, həm də ciddi tələblər yaradır. Naxçıvanda da energetika istiqamətində aparılan işlər, xüsusilə kadr hazırlığı və beynəlxalq təcrübə proqramları xüsusilə diqqət çəkir. Universitet-istehsalat əməkdaşlığı və praktiki tədris imkanları tələbələrin real iş mühitinə daha hazır yetişməsinə şərait yaradır. Bu istiqamətdə görülən işlər və regionun enerji perspektivləri ilə bağlı Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Energetika mühəndisliyi kafedrasının baş müəllimi Sevinc Rzayeva ilə həmsöhbət olduq.***

***– Sevinc xanım, energetika mühəndisliyi ixtisası üzrə kadr hazırlığı hazırda hansı səviyyədə aparılır?***

– Energetika mühəndisliyi ixtisası 2008-ci ildən etibarən Memarlıq və mühəndislik fakültəsinin tərkibində yaradılıb. Həmin ildən bu yana bizim məzunlarımız ölkənin bir çox yerində, eləcə də Naxçıvan Muxtar Respublikasının energetika sahəsində müxtəlif vəzifələrdə çalışırlar. Energetika mühəndisliyi ixtisasında təhsil alan tələbələrə yüksək imkanlar yaradılıb. İstər fakültə daxilində, istərsə də "Naxçıvan Enerji" MMC ərazisində yerləşən bir neçə laboratoriyalar var ki, tələbələrimiz bu laboratoriyalardan yararlanırlar. Tələbələrimiz, eyni zamanda "Naxçıvan Enerji" MMC-də təcrübədə olurlar. Tələbələr burada əyani şəkildə enerjinin alınmasının yolları, yarımstansiyalar, yarımstansiya avadanlıqları və onların təhlükəsizlik qaydaları ilə yaxından tanış olurlar. Bu prosesdə "Naxçıvan Enerji" MMC-nin ixtisaslı mütəxəssisləri tələbələrə yaxından köməklik göstərirlər. Bu gedişat tələbələrin energetika sahəsindəki biliklərinin daha da artmasına və gələcəkdə çalışacaqları müəssisələrdə texniki qaydalara riayət etmələrində və yarımstansiya avadanlıqları ilə işləmə qaydalarında köməklik göstərəcək.

***– Energetika ixtisasının tələbələri universitetin beynəlxalq təcrübə imkanlarından yararlana bilirlərmi?***

– Universitetimizin tələbələri xarici ölkələrdə də mütəmadi olaraq təcrübə proqramlarında iştirak edirlər. 2021-ci ildə tələbələr Almaniyanın Vismar şəhərində energetika sahəsi üzrə təcrübə keçiblər. Orada olarkən tələbələr külək və günəş enerji qurğuları ilə yaxından tanış olublar, bu qurğulardan enerjinin alınma yollarını ətraflı şəkildə öyrəniblər. Bu təkcə energetika sahəsində deyil, tələbələrin dünyagörüşünün artmasında da böyük rol oynayıb.



2022-ci ildə isə mənim rəhbərliyim və energetika xidmətinin bir neçə əməkdaşı ilə birlikdə tələbələrimiz İtaliyanın Florensiya şəhərində təcrübədə oldular. Bu şəhərdə yerləşən "Fimer" şirkətinin təlim mərkəzində olduq. Burada tələbələr yeni texnologiyalar sayılan invertorlar haqqında mühazirələr dinləyiblər. Mühazirəçilər Roma şəhərindən gətirilmiş yüksəkixtisaslı kadrlardan ibarət idi. Onlar invertorların iş prinsipi, daxilində gedən enerji dəyişmələri və tətbiq sahələri barədə tələbələrə ətraflı məlumat verdilər.

Həmçinin Florensiya şəhərində invertor istehsal edən zavodla yaxından tanış olduq və həmin şirkətin ərazisində yerləşən günəş elektrik stansiyalarına baxış keçirdik. Təcrübə müddətində tələbələr invertorların quraşdırılması və günəş elektrik stansiyalarının fəaliyyəti ilə yaxından tanış oldular. Bu il isə energetika ixtisasında təhsil alan IV kurs tələbələrimiz Trabzon şəhərində təcrübəyə göndərilərək Qaradəniz Texniki Universitetinin nəzdində fəaliyyət göstərən Energetika fakültəsində təcrübə keçiblər. Onlar stansiyalarla yaxından tanış olub, yüksəkixtisaslı kadrlar bu təcrübədə onlara rəhbərlik edib. Bütün bu təcrübə prosesləri tələbələrin gələcək iş həyatında böyük əhəmiyyət kəsb edir. Naxçıvan Dövlət Universitetində fəaliyyət göstərən Elektroenergetika mühəndisliyi kafedrasında 2008-ci ildən bəri 5 illik elmi-tədqiqat işləri aparılır. Muxtar respublikanın alternativ enerji potensialı araşdırılıb və bu sahədə müxtəlif tədqiqat işləri yerinə yetirilib. Kafedranın əməkdaşları xarici ölkələrdə keçirilən elmi konfranslarda iştirak edirlər.



***– Energetika sahəsinin bu gün və gələcək üçün əhəmiyyəti nədir?***

– Energetika sahəsinə təkcə bir ixtisas kimi yanaşmaq olmaz, bu sahə həyatın davamlılığını təmin edən əsas sistemdir. Energetika bir ölkənin iqtisadi gücünün, sənaye inkişafının və milli təhlükəsizliyinin əsas dayağıdır. Enerji olmadan həyatı təsəvvür etmək olmaz. Bu gün dünya enerji sistemi böyük transformasiyalar yaşayır. Ənənəvi sistemlər öz yerini daha ağıllı, rəqəmsal sistemlərə ötürür. "Smart Grid" adlandırılan ağıllı şəbəkələr vasitəsilə enerji real vaxt rejimində idarə olunur, vaxt itkisinin qarşısı alınır və qəzalar aradan qaldırılır. Eyni zamanda dünya "yaşıl enerji"yə keçid etməyə başlayır. Bütün bu yeniliklər energetika sahəsində ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac yaradır. Bu sahədə çalışan mütəxəssislər yüksək biliklərə sahib olmalı, rəqəmsal sistemlər, avtomatlaşdırma və proqramlaşdırma biliklərinə yiyələnməlidirlər.

***– Bəs məzunlar üçün iş imkanları nə dərəcədə genişdir?***

– Bu gün Energetika ixtisasını bitirən tələbələr üçün iş imkanları olduqca genişdir. Dövlət enerji qurumları, özəl şirkətlər, beynəlxalq layihələr, alternativ enerji sektoru və elmi-tədqiqat sahəsində gənclərin fəaliyyət göstərməsi mümkündür.

Gələcəyin energetika mühəndisləri texniki biliklərlə yanaşı, böyük məsuliyyət hissi və innovativ baxışa sahib olmalıdır. Çünki energetika bəzən səhvləri bağışlamır. Bu gün bu ixtisası bitirən tələbələr gələcəkdə enerji təhlükəsizliyini təmin edən sistemlərin müəllifi ola bilər. Bakalavr səviyyəsi ilə yanaşı, magistratura pilləsində də energetika mühəndisliyi, eləcə də elektrik sistemləri və şəbəkələri ixtisasları üzrə kadr hazırlığı davam etdirilir. Bu da sahənin perspektivliyinin açıq göstəricisidir.

***– Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi strategiyasını necə qiymətləndirirsiniz?***

– Naxçıvanın "yaşıl enerji zonası"na çevrilməsi strategiyası regionun gələcək inkişafı üçün çoxşaxəli və uzaqgörən yanaşmadır. Bu siyasət həm yerli bərpa olunan enerji potensialından səmərəli istifadəni, həm də enerji təhlükəsizliyinin möhkəmləndirilməsini təmin edir.

Bu strategiya iqtisadi baxımdan da yeni imkanlar açır, investisiyaları cəlb edir, yeni iş yerləri yaradır, sənaye və xidmət sektorunun imkanlarını genişləndirir. Eyni zamanda enerji xərclərinin optimallaşdırılması və ixrac imkanlarının formalaşması regionun rəqabət qabiliyyətini artırır.

"Naxçıvan Enerji" MMC-nin məlumatlarına əsasən muxtar respublika ərazisi min meqavatlarla hesablanan bərpa olunan enerji potensialına malikdir. Universitet ərazisində də 10 KVt külək enerji qurğusu və 3,3 KVt günəş panelləri quraşdırılıb ki, bunları birlikdə mini hibrid enerji stansiyası adlandırmaq olar. Memarlıq və mühəndislik fakültəsi ilk vaxtlarda buradan təmin olunan enerji hesabına öz enerjisini təmin edirdi. Tələbələr dərslər zamanı bu qurğularla əyani şəkildə tanış olur, günəş panelləri və külək qurğularının iş prinsiplərini öyrənirlər.

Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji zonaları"nın yaradılması, yeni günəş və külək elektrik stansiyalarının qurulması mühüm əhəmiyyət kəsb edir. Bu stansiyalar gələcəkdə kadrlar üçün iş imkanlarının artmasına da şərait yaradacaq. Dövlət başçısının qəbul etdiyi qərarlara əsasən 2030-cu ilə qədər 1200 MVt gücündə böyük günəş elektrik stansiyasının tikilməsi planlaşdırılır. Eyni zamanda Culfa və Ordubad – Arazboyu ərazilərdə külək enerji qurğularının quraşdırılması da səmərəlidir. Hazırda Naxçıvan enerji sistemi ölkənin enerji sistemi ilə sinxron deyil və ayrı fəaliyyət göstərir. Gələcəkdə Zəngəzur dəhlizinin açılması enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayacaq. Bununla yanaşı, Cəbrayıl rayonunda quraşdırılan 330 KVt enerji stansiyasının Naxçıvanla əlaqələndirilməsi, yüksək gərginlik xətlərinin və çevirici stansiyaların qurulması, həmçinin 400 KVt Naxçıvan-Türkiyə enerji xəttinin çəkilməsi nəzərdə tutulur.

***– Sonda enerji potensialının inkişafı barədə nə deyə bilərsiniz?***

– Naxçıvanın enerji strategiyasını çox perspektivli hesab edirəm. Bu strategiya təkcə enerji sektorunun deyil, həm də insan kapitalının inkişafına xidmət edir.

"Yaşıl enerji zonası"nın yaradılması tələbələrə və gənc mütəxəssislərə yeni imkanlar açır, onları innovativ texnologiyalarla tanış edir və təhsilin praktiki inkişafına böyük təkan verir. Eyni zamanda bu strategiya regionun iqtisadi potensialını artırır və Naxçıvanı gələcəkdə mühüm enerji mərkəzlərindən birinə çevirə bilər.

**Rafiq TƏHMƏZ**

# Naxçıvanlı şagirdlər Respublika Fənn Olimpiadalarında uğur qazandılar – nəticələr 100 faiz artıb




Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin şagirdləri Respublika Fənn Olimpiadalarında uğurlu nəticələri ilə diqqət çəkiblər. Belə ki, muxtar respublikanın ümumtəhsil məktəblərindən 6 şagird olimpiadanın qalibləri sırasında yer alıb. Biz də qalib şagirdlərdən bir neçəsi ilə həmsöhbət olub onların təəssüratlarını öyrəndik.

Babək rayon Hacıvar kənd tam orta məktəbinin VIII sinif şagirdi Əzim Hacıyev informatika fənni üzrə Respublika Fənn Olimpiadasının final mərhələsində qızıl medal qazanıb. O bu uğurun asan əldə olunmadığını, arxasında uzunmüddətli hazırlıq və davamlı zəhmətin dayandığını bildirib.

Əzim Hacıyev qeyd etdi ki, informatika və kompüter sahəsinə marağı kiçik yaşlarından formalaşıb. O bu istiqamətdə biliklərini artıraraq olimpiada hazırlıqlarına ciddi yanaşdığını vurğulayıb: "İnformatika fənninə olan xüsusi həvəsim məni daha çox çalışmağa və olimpiadaya ciddi hazırlaşmağa sövq etdi. Final mərhələsində qalib olduğumu öyrənəndə böyük sevinc hissi keçirdim. Bu nəticə mənim üçün həm qürur, həm də daha böyük məsuliyyətdir".

Gənc qalib, həmçinin gələcək planlarından da danışıb. O bildirdi ki, məqsədi təhsilini xaricdə davam etdirmək, informatika sahəsini daha dərindən öyrənmək və bu bilikləri gələcəkdə ölkəsinin inkişafına töhfə verəcək layihələrə yönəltməkdir.

Uğur hekayəsini bizimlə bölüşən Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin VIII sinif şagirdi, coğrafiya fənni üzrə gümüş medal qazanan Kənan Qənbərov bildirdi ki, bu fənnə marağı VI sinifdən formalaşıb və həvəs onu VIII sinifdə Respublika Fənn Olimpiadalarında iştirak etməyə istiqamətləndirib.

Kənan qeyd etdi ki, olimpiadaya hazırlıq dövründə müəllimlərinin və ailəsinin dəstəyi onun uğurunda mühüm rol oynayıb: "Bu prosesdə onlardan aldığım dəstək mənim üçün çox dəyərli oldu. Respublika səviyyəsində medal qazanmaq böyük qürurdur".

Gənc olimpiadaçı gələcək hədəflərindən də danışaraq bildirdi ki, bundan sonrakı illərdə də məqsədi Respublika Fənn Olimpiadalarında daha yüksək nəticələr əldə etmək, bilik və bacarıqlarını daha da inkişaf etdirməkdir. O bu istiqamətdə davamlı çalışaraq gələcəkdə daha böyük uğurlara imza atmağı hədəflədiyini vurğulayıb.

Qeyd edək ki, Respublika Fənn Olimpiadaları şagirdlərin bilik və bacarıqlarının inkişaf etdirilməsi, onların elmə marağının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Qalib şagirdlər əldə etdikləri nəticələrlə həm təhsil aldıqları məktəbləri, həm də Naxçıvan təhsilinin uğuruna töhfə verib. Əldə olunan nəticələr ötən tədris ili ilə müqayisədə əhəmiyyətli artımın qeydə alındığını göstərir. Belə ki, 2024-2025-ci tədris ilində şagirdlərimiz Respublika Fənn Olimpiadalarında 1 gümüş və 2 bürünc medal qazandıqları halda, bu il medal sayı 100 faiz artaraq daha yüksək nəticə ilə yadda qalıb.

**Zəhra VƏLİYEVA**

# Hörmət, səbir və sevgi onların 68 illik ailə həyatının yazılmamış qanunları olub



Bəzən bir ailənin hekayəsini dinləmək üçün uzun söhbətlərə ehtiyac olmur. Bəzən bir baxış, bir-birinə deyilən sadə bir söz, çay süfrəsi arxasında yaranan sakitlik illərin hansı möhkəm təməl üzərində qurulduğunu göstərməyə yetir.

Bu dəfə yolumuz Şahbuz rayonunun səfalı guşələrindən biri olan Badamlı kəndinə idi. Yazın ılıq nəfəsinin kəndin küçələrinə yayıldığı, dağlardan əsən mehin ağacların çiçəklərini zərifcə yırğalandığı bir gündə 68 illik ailə həyatının sirrini öyrənmək üçün Zinyət nənə ilə Hüseyn babanın qonağı olduq.

Kənd evlərinin özünəməxsus bir istiliyi var. Həyətdən içəri daxil olan kimi adamı qarşılayan səmimiyyət, samovarın qaynayan səsi, ətrafın yaşıllığı, rəngbərəng güllər və kölgə salan ağaclar burada hökm sürən doğmalığı ilk andan hiss etdirirdi. Zinyət nənə ilə Hüseyn babanın evində də ilk hiss olunan məhz bu idi. İllərin sınağından keçmiş doğmalıq.

Onların həyat yolu düz 68 ildir ki, eyni cığırla davam edir. Bu uzunömürlü ailənin bu gün 7 övladı, 11 nəvəsi və 3 nəticəsi var. Böyük bir nəslin təməlində isə məktəb illərində başlayan saf sevgi dayanır.

Zinyət nənə keçmişi xatırlayarkən çöhrəsində qəribə bir təbəssüm yaranır. Sanki yaddaşının ən işıqlı səhifələrini vərəqləyir.

"Məktəbdə oxuyanda bir-birimizi tanımışıq. Sonra bu tanışlıq sevgiyə çevrildi. Elə sevib ailə qurduq", – deyə o, sakit səslə danışır.

Bu sadə cümlənin arxasında bir ömür gizlənir. O dövrün sevgisi bugünkü kimi gurultulu deyildi. Nə saysız mesajlar vardı, nə sosial şəbəkələr, nə də hər addımı nümayiş etdirən görüntülər. Hisslər daha sakit, amma daha dərin yaşanırdı. Baxışlar sözləri əvəz edir, sədaqət isə sevginin ən böyük sübutuna çevrilirdi.

Zinyət nənə deyir ki, onların gənclik dövründə ailə qurmaq daha asan idi. "İndi ailə qurmaq çətindir. İndi insanlar tez inciyir, tez də ayrılır. Bizim vaxtımızda səbir çox idi", – deyə əlavə edir sözlərinə.

Onun bu sözlərində nostalgiyadan çox həyat təcrübəsinin hökmü hiss olunur. Çünki 68 il eyni dam altında yaşamaq, həyatın bütün çətinliklərini birlikdə qarşılamaq, sevinci də, kədəri də bölüşmək tək zaman məsələsi deyildi. Bu, xarakter, anlayış və qarşılıqlı fədakarlıq tələb edir. Bəs bu qədər uzun illər ailə birliyini qorumağın sirri nədir?

Bu suala həm Zinyət nənə, həm də Hüseyn baba tərəddüdsüz eyni cavabı verirlər: Hörmət.

Onların fikrincə, sevgi ailənin başlanğıcıdırsa, hörmət onun dayağıdır. Sevgi bəzən zəifləyə, gündəlik qayğılar içində yorula bilər. Amma hörmət varsa, ailə bütövlüyünü qoruyur.

"Hər zaman bir-birimizi anlamışıq. Bir-birimizin xətrinə dəyməməyə çalışmışıq. Yaxşı yola getmişik", – deyən Hüseyn baba qısa sözləri ilə ömür yolunu ümumiləşdirir.

Onların söhbətinə qulaq asdıqca aydın olur ki, bu evdə illər boyu səs-küydən çox qarşılıqlı anlayış hökm sürüb. Mübahisələr olubsa da, onları böyütmədən, inciklikləri kinə çevirmədən həll etməyi bacarıblar.

Ailə üçün ən vacib dəyərləri soruşduqda isə cavab yenə dəyişmir: hörmət, səbir və sevgi. Bu üç söz onların 68 illik həyatının yazılmamış qanunları olub.

Söhbət əsnasında onların qızının dediyi bir cümlə isə bu ailənin mahiyyətini ən dəqiq şəkildə ifadə edir: "Uşaqlıqdan bu evdə həmişə bir-birinə hörmətin şahidi olmuşam. Anamla atamın münasibətində sevgi ilə yanaşı, böyük bir ehtiram da olub. Elə bizə ailənin dəyərini öyrədən də məhz bu olub".



Əslində, ailə tərbiyəsinin ən güclü forması da budur. Uşaqlara nəsihət verməkdən daha təsirlisi onlara nümunə olmaqdır. Zinyət nənə ilə Hüseyn baba övladlarına sevginin nə olduğunu uzun söhbətlərlə yox, bir ömürlük davranışları ilə göstəriblər.

Onların evində illərin yorğunluğu yox, illərin hikməti hiss olunur. Bir-birinə çay süzərkən göstərilən diqqət, söhbət zamanı qarşı tərəfin sözünü tamamlayan baxışlar, səssiz anlaşma. Bunların hər biri zamanın cilaladığı münasibətin izləridir.

Bu gün sürətlə dəyişən dünyada münasibətlər də bəzən tələsik qurulub tez də dağılır. İnsanlar çox vaxt ailənin yalnız xoşbəxt anlardan ibarət olduğunu düşünürlər. Halbuki Zinyət nənə ilə Hüseyn babanın həyat yolu göstərir ki, əsl ailə sevincin də, çətinliyin də içindən əl-ələ keçərək çıxmaqdır.

Kənddən ayrılarkən arxada, sadəcə, bir ev qoymadıq. Arxada 68 ilin səbrini, anlayışını, sevgisini və hörmətini yaşadan həyat məktəbi qoyduq.

Zinyət nənə ilə Hüseyn baba sübut edir ki, uzunömürlü ailənin sirri mürəkkəb düsturlarda deyil. Sirr bir-birinə hörmətlə yanaşmaqda, çətin gündə yanında olmaqda, illər keçsə də, "biz" olmağı bacarmaqdadır.

# 93 ilin zirvəsindən baxan bu qadının hafizəsində hər ilmənin bir tarixi var



Naxçıvanın qədim yaddaşını sinəsində daşıyan Tənənəm kəndinə doğru dolanbac yollarla irəlilədikcə dağların qoynuna sığınmış bu məkan bizi öz sakitliyi ilə qarşılayır. Amma bu səssizlik zahiridir. Hər daşında bir iz, hər həyətdə neçə-neçə ömrün xatirələri gizlənib, əslində.

Havası da özü kimi təmiz olan bu kəndin dağlarından süzülüb gələn meh insanın üzünə toxunduqca şəhərin gurultusu, zamanın yorğunluğu yavaş-yavaş çəkilib gedir. Elə bil bu kənddə vaxt başqa cür axır, insanlar həyatı daha dərindən yaşayır.

İllərin yadigarını qoruyan, zamanın sınadığı o köhnə qapılardan birini döyürük. Taxta qapının arxasında bizi bütöv bir sənət dünyası qarşılayır. İçəri daxil olan kimi ilk diqqəti çəkən hananın qarşısında əyləşmiş qadının çöhrəsidir. Üzündə zəhmət dolu bir ömrün cizgiləri var. Bu zəhmətkeş xanım 93 yaşlı Leylan nənədir.

O, xalça hanasının qarşısında elə bir təmkinlə əyləşib ki, barmaqlarının yavaş, amma qətiyyətli hər hərəkəti ilmələri bir-birinə düyünləyərək illərin xatirələrini yenidən canlandırır.

Səssizliyi pozan bu zərbələr nə adi əmək, nə də adi taxtanın taxtaya dəymə səsidir. Düz altmış üç ilin sədasıdır bu. Bir qadının ömrünü ilmələrə necə köçürdüyünün, səbrini rənglərə necə çevirdiyinin və taleyini naxışlarla necə danışdırdığının canlı sədası. Bu səsdə həm Leylan nənənin gənclik şövqü, həm də 93 illik müdrikliyin təmkinli ahəngi var.

Leylan nənənin xalçaçılıq hekayəsi də məhz 63 il əvvəl başlayıb. Otuz yaşında ilk dəfə əlinə yumaq alanda, yəqin ki, bu sənətin onun ömrünün ən sədaqətli sirdaşına çevriləcəyini özü də bilmirdi. Həmin gündən bu yana keçən illər ərzində neçə qış gəlib, neçə yaz ötüb, neçə qar dağların zirvəsinə yağıb, neçə çiçək açıb-solub. Amma Leylan nənənin hanası susmayıb.

Bu illər ərzində onun barmaqları yüzlərlə xalçaya həyat verib. Birində gəncliyinin arzuları, birində ana qayğısı, birində ayrılıqların kədəri, birində sevinc dolu günlərin rəngi.

O danışdıqca məlum olur ki, xalça onunla həyat arasında qurulmuş görünməz körpüdür.

"Xalça toxuyanda yorğunluğumu unuduram", – deyir nənə.

Bu sözləri deyərkən üzündə elə təbəssüm yaranır ki, başa düşürsən ki, bəziləri üçün adi görünən ilmələr Leylan nənə üçün ömrün düzümüdür. Onun hanasının qarşısında keçirdiyi saatlar, günlər, aylar, illər ruhunun sakitləşdiyi, qəlbinin dinclik tapdığı anlardır.

Onun toxuduğu xalçalara baxanda həmin naxışlarda bir kəndin yaddaşı, bir qadının ömür salnaməsi görünür.

Ən heyrətləndirici məqam isə budur ki, 93 yaşında belə onun yaddaşı bu naxışları dəqiq xatırlayır.

Heç bir kağıza baxmadan, heç bir nümunə götürmədən ilmələri öz yerinə elə ustalıqla salır ki, adam təəccüblənir. Barmaqları bir az titrəyir. Amma bu titrəyiş zəifliyin yox, ömrün izidir. İlmələr isə yenə də dəqiq yerini tapır.

Onun işləməsini izləyərkən insan anlayır ki, sənət yaşla zəifləmir. Əksinə, zaman keçdikcə daha da kamilləşir.

Söhbət əsnasında öyrənirik ki, bu sənət ona yalnız məşğuliyyət olmayıb. Ailəsinin, övladlarının, həyatının ayrılmaz parçası olub. Bəzən gecələr səhərə qədər hananın qarşısında oturub, bəzən yorğun olsa da, işi yarımçıq qoymayıb, bəzən çətin günlərdə bu hana ona təsəlli verib, bəzən sevincini də, kədərini də ilmələrə danışıb. Hər xalçada onun duyğularının izi qalıb. Bəlkə də, buna görə onun toxuduğu xalçalar bu qədər canlı görünür. Çünki onlar hisslərlə toxunub.

Leylan nənənin evi də özü kimi sadə və səmimidir. Evində toxuduğu xalçaların neçə aya başa gəldiyindən danışır bizə. Digərinin naxışını göstərib hansı günlərdə başladığını xatırlayır. Bir başqasını göstərib onu toxuyarkən hansı hadisələrin yaşandığını yada salır. Bu yaddaş adamı heyrətləndirir. 93 ilin zirvəsindən baxan bu qadının hafizəsində hər ilmənin bir tarixi var. Bəlkə də, əsl sənət budur. Yaratdığını unutmayacaq qədər ona bağlı olmaq.

Bu yaşda bir çoxları dincəlməyi seçərdi. Amma o hələ də yaratmağa davam edir. Bu xalçalar təkcə bu gün üçün toxunmur, onlar gələcək nəsillərə ünvanlanmış səssiz məktublardır.

Leylan nənə 93 yaşında hələ də hanasının qarşısında əyləşərək ilmələri düyünləyir. 63 ildir, etdiyi kimi. Zaman onun saçlarını ağardıb, üzünə qırışlar salıb, amma sənət sevgisini qocalda bilməyib. Çünki bəzi sevgilər yaşlanmır, onlar zaman keçdikcə daha da dərinləşir.

***Dünyanın elə müqəddəs nöqtələri var ki, orada zamanın saat əqrəblərinin səsi yox, minilliklərin sədası duyulur. Naxçıvanın göz bəbəyi, tarixin hər sətirində öz silinməz imzasını qoyan Ordubad məhz belə bir məkandır. Bu torpaq bəşəriyyətin uzaq çağlarından bu gününə qədər uzanan bir dastan, qaya üzərinə qanla, tərlə və eşqlə yazılmış bir alın yazısıdır. Daş dövrünün o dərin sükutundan başlayıb orta əsrlərin möhtəşəm minarələrinin azan səslərinə qədər uzanan bu yol, bu gün bəşəriyyət qarşısında ən parlaq zirvəsini fəth edir. 2026-cı il Ordubadın minillik təqviminə qızıl hərflərlə həkk olunur, çünki bu qədim şəhər öz saflığı, toxunulmaz tarixi irsi və sarsılmaz ruhu ilə ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib.***

# Daşlaşmış yaddaşın gül açan baharı

Buludlarla pıçıldaşan, əzəmətli Qapıcıq dağının zirvələrində, Gəmiqayanın ətəklərində əcdadlarımızın ilk addım səsləri hələ də əks-səda verir. Qaranquş yaylağında, o sərt qaya parçaları üzərində canlanan heyvan rəsmləri, ov səhnələri və sirli damğalar elə bil, zaman maşınıdır. Eneolit və Tunc dövrlərindən bizə boylanan o cizgilər bədii təsvirlərdən daha çoxudur. Onlar babalarımızın həyata, təbiətə, kainatın sirlərinə və Tanrıya olan ilk səmimi duasının rəsmidir. Gilançay vadisinin sahillərində ucalan Sabirkəndin, Plovdağın və sirlərlə dolu Xaraba Gilanın qalıqları arasında gəzərkən insanın ruhu titrəyir. Adamın qulağına qədim əkinçi-maldar tayfaların zəhmət dolu nəğmələri, Arazın pıçıldadığı həsrət dolu hekayələr gəlir. Naxçıvançayın və Gilançayın sahillərində qurulan bu yurdlar Ordubadı sadə bir məskəndən bəşəriyyətin sivilizasiya ocağına, mədəniyyət beşiyinə çevirib. Hər qarış torpağı bir nekropolun sükutunu, hər daşı bir ibadətgahın müqəddəsliyini daşıyan bu diyar, Biləv kəndinin o əzəmətli kanyonunda ucalan Babək qalası ilə azadlıq eşqimizi, Gəmiqayadakı qəbiristanlıqları ilə torpağın altına basdırdığımız, lakin heç vaxt ölməyən ruhumuzu simvolizə edir.

Ordubadın dar, dolanbac, daş döşənmiş küçələrində gəzərkən insan özünü sanki canlı memarlıq tablosunun içində hiss edir. Şəhərin mərkəzində göylərə dirək olan Cümə məscidi öz heybəti ilə əsrlərin bütün tufanlarına sinə gərən sarsılmaz iman kimidir. Qeysəriyyə isə sənətkarlığın, zərifliyin və Şərq ticarət ruhunun qovuşduğu bir şah əsərdir. Eyvas türbəsinin o hüznlü duruşu isə bizə keçmişin əmanətini xatırladır. Əylisdəki Şah Abbas məscidi XVI əsrin nəfəsini və möhtəşəmliyini bu günə daşıyarkən, Dəstə, Vənənd, Gənzə və Dırnıs məscidləri İslam mədəniyyətinin bu torpaqlarda nə qədər dərindən kök saldığını, ruhumuza necə hopduğunu göstərir. Aza körpüsü üzərindən keçərkən ayağınızın altındakı daşlar Böyük İpək Yolunun tozlu karvanlarının gəlişini xəbər verir. Düylün, Xanağa və Nüsnüs pirlərində kimsəsiz qalmayan o dualar, mənəvi dincliyin ən təmiz zirvəsidir.

Ordubad bu il övladlarıyla yanaşı, bütün İslam coğrafiyasını öz səmimi ağuşuna alır. Bu il o özünün heyrətamiz mənzərələri, min illərin o yanından gələn qədimliyi və insanının bənzərsiz qonaqpərvərliyi ilə dünyaya sülh, qardaşlıq və mədəniyyət ismarıcı göndərir. Hər çeşməsinin başında bir əfsanə gizlənən, hər qapı toxmağında minillik bir nəzakət yaşadan bu şəhər Gəmiqayanın sarsılmaz daşlarını İslamın nuru ilə birləşdirərək əbədiyyətə doğru böyük bir vüqarla addımlayır. Ordubad ulu tarixin bugünkü zəfər sədasıdır. Ordubad daşlaşmış yaddaşın gül açan baharı, Naxçıvanın dünyaya açılan pəncərəsi və İslam dünyasının sönməyən məşəlidir.

✍ Elnurə CƏFƏROVA



# Firuzə rəngli əfsanə, yaxud qadın ucalığının memarlıq zirvəsi dünya tədqiqatçılarının əsərlərində

**Tarixi İpək Yolunun ən mühüm qovşaqlarından biri olan Naxçıvan əsrlərboyu həm ticarət, həm də mədəniyyət mərkəzi kimi strateji əhəmiyyətini qorumuşdur. Hələ qədim dövrlərdə K.Ptolomeyin əsərlərində xatırlanan bu diyar, orta əsrlərdə özünəməxsus memarlıq məktəbi ilə İslam dünyasının sənət mərkəzinə çevrilmişdir. Sənətşünasların fikrincə, bu məktəb memarlıq sahəsində “Nizami zirvəsi”nə yüksəlmişdir. Gəmiqayanın sıldırım qayalarındakı daş yaddaşından başlayaraq Əlincə qalasının sarsılmaz əzəmətinə, Yusif Küseyr oğlu türbəsinin mühəndislik dəqiqliyinə və Qarabağlar kompleksinin firuzəyi zərifliyinə qədər bu region bir memarlıq ensiklopediyasını xatırladır. Bu zəngin memarlıq irsi içərisində elə bir inci var ki, o həm sənətkarlıq səviyyəsi, həm də daşıdığı mənəvi, fəlsəfi dəyəri ilə bütün dünyanı özünə heyran qoymuşdur. Qadın zəkasının dövlət idarəçiliyindəki gücünü simvolizə edən Möminə xatun türbəsi Naxçıvan abidələri arasında xüsusi bir məna qatı daşıyır.**

***“Şəhərsalma və Memarlıq İli”***

XII əsrdə, Şərq intibahının çiçəkləndiyi bir dövrdə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz tərəfindən həyat yoldaşı Möminə xatunun şərəfinə ucaldılan bu türbə Azərbaycan xalqının qadına, anaya verdiyi yüksək dəyərin ən bariz nümunəsidir. Əcəmi Naxçıvaninin bənzərsiz memarlıq fantaziyasının məhsulu olan bu memarlıq incisi qadın zərifliyini daşın sərtliyində əbədiləşdirən bir sevgi və ehtiram simvoludur. Türbənin uca gövdəsini yuxarıda qapayan yazı qurşağında – abidənin baş kitabəsində yazılmışdır: “Bu türbəni dünyanın elmli adil məliki, böyük qalib Şəmsəddin Nüsrət əl-islam və əl-muslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəgiz… Dünyanın və dinin cəlalı, İslamın və müsəlmanların namusu Möminə xatunun xatirəsinə tikilməyi əmr etdi”.

Qeyd edək ki, Naxçıvanın memarlıq irsi tarixboyu əcnəbi səyyahların, arxeoloqların və şərqşünasların diqqət mərkəzində olmuşdur. Bu tədqiqatçılar içərisində N.Xanıkov, V.Sısoyev, U.Ouseley, D.Monpere, J.Dyölafua, İ.P.Şeblıkin və bir çoxlarının Naxçıvan memarlıq abidələrinin, xüsusilə də Möminə xatun türbəsinin beynəlxalq mədəni və elmi müstəvidə tanıdılmasında müstəsna xidmətləri olmuşdur. XX əsrin tanınmış sənətşünası M.V.Alpatov qeyd edir: “XII əsrin sonlarında Azərbaycan ustalarının görkəmli əsəri olan Naxçıvandakı Möminə xatun məqbərəsi özünün xüsusi gözəlliyi və zərifliyi ilə seçilir. Güclü və bir qədər kobud despotizmi əks etdirən Qahirə məqbərələrindən fərqli olaraq Şərq hökmdarının həyat yoldaşının məzarı üzərində tikilən bu abidə daha nəcib, daha zərif, daha lirikdir...”

Əsrlərboyu Naxçıvana səfər edən bir çox tədqiqatçı bu möhtəşəm abidəni təkcə sözlərlə təsvir etməklə kifayətlənməmişlər. Onların bir çoxunun həm də peşəkar rəssamlıq istedadına malik olması sənət tarixi üçün misilsiz bir şans yaratmışdır. Onların fırçasından çıxan rəsmlər türbənin zamanın aşındırıcı təsirinə məruz qalmamışdan əvvəlki ilkin əzəmətini və bənzərsiz ornamentlərini sənədləşdirərək bu gün bərpaçı mühəndislər və sənətşünaslar üçün ən mötəbər vizual mənbəyə çevrilmişdir.

Aparılan araşdırmalar zamanı məlum olur ki, Möminə xatun türbəsinin çəkilmiş ilk təsviri britaniyalı şərqşünas U.Ouseleyə məxsusdur. Bu haqda Y.Xəlilovun məqaləsində oxuyuruq: “1823-cü ildə britaniyalı şərqşünas U.Ouseleyin Londonda çap edilmiş “Şərqin müxtəlif ölkələrinə, xüsusilə də İrana səfərlər” adlı kitabına müraciət edək. Həmin kitabdan aydın olur ki, U.Ouseley 1812-ci ildə səyahəti zamanı Naxçıvanda da olmuş və həmin il Möminə xatun türbəsinin rəsmini çəkmişdir”. Bəhsi gedən kitabda oxuyuruq: “Naxçıvandakı günbəzin (söhbət Möminə xatun türbəsindən gedir) və digər dağılmış tikililərin tədqiqini səhərə qədər təxirə salmaq qərarına gəldim... Qeyd olunan günbəz geniş qübbəli zaldan ibarət idi. Kərpic divarları içəri tərəfdən tamamilə çılpaq idi, lakin çöldə mavi şirli kufi yazısı sərgilənirdi”.

İsveçrəli səyyah və rəssam D.Monperenin altı cildlik “Qafqaza səyahət” əsərindən məlum olur ki, o, 1830-cu illərdə Gəncə, Qarabağ, İrəvanla yanaşı, Naxçıvanı da ziyarət etmişdir. Səyyah bəhsi gedən kitabda Naxçıvanda olduğunu ruh yüksəkliyi ilə vurğulayır: “Nəhayət, mən özümü möhtərəm Nuh şəhərində, tarixçi İosifin (İ.Flavin) fikrincə, ilk yaşayış yeri mənasını verən Naxçıvanda tapdım”.

D.Monpere də Möminə xatun türbəsini təsvir edən ilk rəssamlardan idi. Şərqşünasın öz qeydlərindən oxuyuruq: “Giriş qapısı ilə üzbəüz bir az aralıda yerləşən abidə öz növünə görə unikaldır. O adətən, Atabəy günbəzi adlanır”. Türbənin tikinti xarakteri qarşısında heyranlığını və təəccübünü gizlədə bilməyən səyyah qeyd edir: “Necə də səbirlə işlənib...”

Qeyd edək ki, D.Monpere öz sələflərindən fərqli olaraq bizə kompleksin daha geniş təsvirlərini qoymuşdur. Belə ki, onun dövründə kompleksin dağılmış hissələri, memarlıq ansamblını əhatə edən divarları da mövcud idi.

Cənubi Qafqaz və Azərbaycanın tarixi bölgələrinə həsr etdiyi tədqiqatları, eləcə də zəngin vizual arxivi ilə tanınan fransız arxeoloq və səyyah J.Dyölafuanın “İran, Keldani və Suziana” adlı fundamental əsərində D.Lancelot, H.Klerget kimi fransız rəssamlar tərəfindən böyük ustalıqla işlənmiş Naxçıvan memarlıq abidələrinin qravür təsvirləri yer almışdır. Bu təsvirlər arasında Möminə xatun türbəsinin qrafik rəsmləri həm detalların dəqiqliyi, həm də bədii ifadə tərzi baxımından xüsusilə seçilir. Bu qravürlər abidənin XIX əsrdəki vəziyyətini sənədləşdirməklə yanaşı, onun Naxçıvan memarlıq irsinin bənzərsiz nümunəsi kimi beynəlxalq arenada təqdim olunmasında mühüm rol oynamışdır.

J.Dyölafua Möminə xatun türbə kompleksi haqqında kitabın 24-cü səhifəsində məlumat verərək yazır: “Qismən dağılmış günbəzlə örtülmüş nəhəng bir məscidi və bir qədər aralıda böyük bir müsəlman şəxsiyyətinin son yuxusunu keçirdiyi cazibədar kiçik bir bina olan Atabəy günbəzini ziyarət edirik... Onun hər bir üzündə bir-biri ilə iç-içə keçən kərpicləri və firuzəyi-mavi zolaqları son dərəcə zərif dizaynlar yaradır”.

J.Dyölafuanın əsərində fransız qravüraçı-rəssam D.Lancelot tərəfindən təsvir edilmiş “Naxçıvandakı Cümə məscidi və minarənin dağıntıları” adlı lövhə xüsusi maraq doğurur. Qravürdə mərkəzi kompozisiya kimi qoşa minarəli baştağ və onun fonunda ucalan Möminə xatun türbəsi təsvir edilmişdir. Bu sənət əsəri Möminə xatun kompleksinə həsr olunmuş rəsmlər arasında baştağın və minarələrin bu dərəcədə nəhəng, əzəmətli və detallı əks olunduğu nadir vizual mənbələrdən biridir.

Qravür təkcə müəllifinin rəssamlıq məharətini deyil, həm də Əcəmi dühasının əzəmətini özündə təcəssüm etdirir. Əsər daş üzərində həkk olunmuş sənət möcüzəsinin, onun həsr olunduğu şəxsin nüfuzunun, ona verilən ali dəyərin memarlıq dilindəki təntənəsini bir daha sübut edir.

D.Lancelotun əsərində işıq-kölgə münasibətlərinin düzgün həlli sayəsində türbə kompozisiyanın mərkəzi obyekti kimi baştağdan daha işıqlı verilmişdir. Sadə cizgilərlə nəfis şəkildə ifadə olunan mürəkkəb ornamentlər kərpic hörmənin zənginliyini, eləcə də abidənin plastik həcmini ön plana çıxarır. Yuxarıya doğru istiqamətlənmiş dar tağçalar isə memarlıq nümunəsinin bədii biçimini tamamlayaraq ona dinamik yüksəklik bəxş edir.

Qeyd etmək lazımdır ki, kitabda rast gəlinən bəzi faktlar tarixi həqiqətlərlə ziddiyyət təşkil edir. Məsələn, 24-cü səhifədə müəllif Möminə xatun türbəsini təsvir edərkən onu XIV əsrə və Moğol memarlığına aid edir. Hündürlüyü və Cümə məscidi ilə əlaqəsi baxımından söhbətin məhz Möminə xatun türbəsindən getdiyi, şübhəsiz, olsa da, onun xronologiyası və aid olduğu memarlıq məktəbinin adı kökündən yanlışdır. Memarlıq tariximizin incisi olan bu türbə XII əsrdə öz inkişafının zirvəsində dayanan Naxçıvan memarlıq məktəbinin ən parlaq nümunəsidir. Fikrimizcə, bu yanlışlıq müəllifin istinad etdiyi qeyri-dəqiq mənbələrdən qaynaqlanmışdır. Lakin bütün bunlarla yanaşı, etiraf edilməlidir ki, J.Dyölafuanın müəllifi olduğu bu əsərdəki illüstrasiyalar Möminə xatun türbəsinin həmin dövrdəki mövcud vəziyyətini sənədləşdirmək baxımından müstəsna əhəmiyyət kəsb edir. Bu rəsmlər abidənin o zamankı real görüntüsünü vizual şəkildə qoruyub saxlayan qiymətli bir mənbədir. Müxtəlif tarixi dövrlərdə Naxçıvanda olmuş şərqşünaslar arasında



İ.P.Şeblıkinin adı da xüsusi vurğulanmalıdır. 1928-ci ildə Bakıya dəvət edilən və Azərbaycan memarlıq abidələrini araşdıran görkəmli tədqiqatçı Möminə xatun türbəsinin hər bir kərpicini, hər bir ornamentini mahir bir rəssam ustalığı ilə kağıza köçürmüşdür. İ.P.Şeblıkinin qeydlərində bu abidə “Şərq memarlığının tacı” kimi təsvir olunur. Onun qrafik eskizləri bu gün abidənin orijinal görkəminin bərpası və öyrənilməsi üçün əvəzolunmaz elmi mənbədir.

Nəhayət, qeyd etmək olar ki, Möminə xatun türbəsi həm bir anaya, həm də bir dövlət xadiminə duyulan ehtiramın əbədiyyət rəmzidir. Bu abidənin dünya tədqiqatçıları tərəfindən öyrənilməsi təkcə memarlıq irsimizin deyil, həm də tariximizin humanist mahiyyətinin dərk edilməsi deməkdir. Belə ki, türbə təkcə Şərq memarlığının bənzərsiz möcüzəsi deyil, həm də orta əsrlər Azərbaycanında qadın şəxsiyyətinə verilən ali dəyərin daşlaşmış təzahürüdür.

Bu gün Naxçıvanın memarlıq incisi özünün yeni intibah dövrünə qədəm qoyur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsi mədəni irsimizə göstərilən dövlət qayğısının ən ali təzahürüdür. Bu əlamətdar ilin dünya şöhrətli sənətkar memar Əcəmi Naxçıvaninin anadan olmasının 900 illik yubileyi ilə səsləşməsi isə xalqımızın çoxəsrlik dövlətçilik və mədəniyyət tarixinin simvolik bir vəhdətidir. Məhz bu yubiley ili çərçivəsində dövlət başçısının qayğısı ilə Türk-İslam dünyasının möhtəşəm abidəsi olan Möminə xatun türbəsinin əsaslı şəkildə bərpa olunması, Naxçıvan şəhərində Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında sərəncamlar dahi Əcəmi dühasına və onun bizə miras qoyduğu memarlıq möcüzəsinə olan ehtiramın ifadəsidir.

Bir vaxtlar dünyaşöhrətli tədqiqatçıların heyranlıqla izlədiyi “firuzə rəngli əfsanə”, aparılan yüksək səviyyəli bərpa işləri sayəsində öz ilkin görkəmini yenidən qazanacaqdır. Bu bərpa işləri təkcə bir abidənin xilası deyil, həm də Naxçıvan memarlıq məktəbinin bəşər mədəniyyətinə bəxş etdiyi silinməz imzanın əbədiləşdirilməsidir. “Biz gedirik, ancaq qalır ruzigar, biz ölürük, əsər qalır yadigar”, – deyən ustad Əcəminin irsi doqquz əsr sonra yenidən öz bədii və memarlıq zirvəsində bərqərar olur.

**Şəmsiyyə ZALOVA**
***AMEA Naxçıvan Bölməsinin elmi işçisi, Azərbaycan Rəssamlar İttifaqı və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü***



# Naxçıvanın al-qırmızı, bənzərsiz gözəlliyi

Naxçıvanın bahar havası adamı öz ağuşuna elə alır ki, bəzən yol səni tamam başqa bir ovqata aparır. Ordubad istiqamətində uzanan yolda bizi qarşılayan mənzərə də elə həmin ovqatın özü idi. Təbiət öz güllü-çiçəkli libasını hələ çıxarmağa tələsmir. Yolboyu dağların qoynuna sığınan yaşıllıq, uzaqdan görünən qar örtüklü zirvələr və səmada nazlana-nazlana üzən buludlar Naxçıvanın əzəmətini bir daha göz önünə sərirdi.

Bu yolun ən heyrətamiz dayanacağı isə hər kəsin səbirsizliklə üz tutduğu laləlik idi. Bir az gecіksək də, bizi qarşılayan mənzərə bütün yorğunluğu unutdurdu. Torpağın sinəsindən boylanan rəngbərəng lalələr baharın al rənglərini sərgiləyirdi. Qırmızı, sarı çalarların bir-birinə qarışdığı bu rəng seli insanı valeh etməyə bilməzdi.

Küləyin zərif toxunuşu ilə yırğalanan çiçəklər sanki Naxçıvan torpağının qədim ruhunu əks etdirirdi. O an anlayırsan ki, təbiətin yaratdığı bu gözəllik qarşısında sözlər bəzən aciz qalır.

Naxçıvan hər fəsildə başqa bir gözəllik təqdim edir. Yaz gələndə isə bu diyar tamam başqa rəngə boyanır. Dağların ətəyindən başlayan yaşıl örtük, çayların gur səsi, yamaclarda açan çiçəklər bu qədim yurdu canlı bir tabloya çevirir. Burada təbiət, sadəcə, seyr edilmir, hiss olunur. Hər nəfəsində torpağın ətri, hər baxışında minilliklərin sakitliyi duyulur.

Ordubada gedən yol isə bu gözəlliklərin içindən keçən bir nağıl yolunu xatırladır. Hər döngədə yeni bir mənzərə açılır, insanı heyrət hissi bürüyür. Yolyoldaşı olduğumuz dostlarla birlikdə gah dayanıb şəkillər çəkir, gah da səssizcə bu gözəlliyi seyr edirdik. Çünki bəzi mənzərələrə, sadəcə, baxıb heyran qalmaq istəyirsən.

Bəzən ən möhtəşəm mənzərələr elə doğma torpağın qoynunda gizlənir. Naxçıvanın baharı da məhz belə bir möcüzədir. Hər baxanda yenidən aşiq olduğun, hər gördükcə heyrətini təzələyən bir möcüzə.

Bu dəfə yolumuz Ordubada idi, amma yaddaşımızda qalan lalələrin rənginə boyanan o bahar mənzərəsi, dağların əzəməti və Naxçıvanın insanın ruhuna toxunan bənzərsiz gözəlliyi oldu. Bəzən bir günün içində bütün bir fəslin sehrini yaşamaq mümkündür.



✍ Elnurə CƏFƏROVA



## Naxçıvanda ilk dəfə keçirilən HIPPO Olimpiadasında 7 şagird ikinci mərhələyə vəsiqə qazanıb



Naxçıvan Dövlət Universitetinin Kembric Məktəbində keçirilən Beynəlxalq İngilis Dili Olimpiadası HIPPO “English Without Borders” layihəsinin mərhələləri uğurla yekunlaşıb. Muxtar respublikanın müxtəlif təhsil ocaqlarından 100-dən çox şagirdin qatıldığı bilik yarışında əsas fəallıq məhz Kembric Məktəbinin şagirdləri tərəfindən nümayiş etdirilib. İngilis dili üzrə hazırlıq səviyyələrini inamla ortaya qoyan məktəblilər əldə etdikləri nəticələrlə diqqət çəkiblər.

Dünyanın ən nüfuzlu dil müsabiqələrindən biri sayılan bu olimpiada 6-19 yaş arası iştirakçılar üçün həm də beynəlxalq təhsil mühitinə inteqrasiya platformasıdır. Burada şagirdlər dil bacarıqları ilə yanaşı, analitik düşüncə, çevik qərarvermə və mədəniyyətlərarası ünsiyyət qabiliyyətlərini də sınamaq imkanı qazanırlar.

Mövzu ilə bağlı NDU-nun Beynəlxalq Kembric Məktəbinin direktoru Bayram Əliyevlə həmsöhbət olduq. O bildirdi ki, əldə olunan nəticələr məktəbin gələcək inkişaf strategiyasının uğurlu istiqamətdə formalaşdığını göstərir: “Əsas məqsədimiz şagirdlərimizi beynəlxalq təhsil mühitinə inteqrasiya etdirməkdir. Kembric proqramı vasitəsilə dünyanın müxtəlif təhsil müəssisələri və beynəlxalq layihələrlə əməkdaşlıq edirik. HIPPO Olimpiadasında iştirakımız da məhz bu əməkdaşlığın nəticəsidir. Bu uğur bizim üçün həm də gələcəyə hesablanmış strateji hədəflərimizin göstəricisidir”.

Direktor qeyd edib ki, məktəbin 6 şagirdi ilk mərhələni uğurla keçərək növbəti mərhələyə vəsiqə qazanıb: “Ümumilikdə, Naxçıvan üzrə ikinci mərhələyə yüksələn 7 şagirddən 6-sı bizim məktəbin təmsilçisidir. Məktəbin yeni fəaliyyətə başlamasına, sinif sayının və şagird kontingentinin məhdud olmasına baxmayaraq, əldə olunan göstəricilər kifayət qədər yaxşıdır”.

Bayram Əliyev vurğulayıb ki, iştirakçıların yalnız 8 faizinin növbəti mərhələyə keçid əldə etdiyi belə bir olimpiadada bu nəticənin qazanılması məktəbin hazırlıq səviyyəsinin bariz nümunəsidir. Şagirdlərin əksəriyyətinin 80 faizdən yüksək nəticə göstərməsi, vəsiqə qazananların isə 90 faizdən yuxarı bal toplaması görülən işin real göstəricisidir.

Həmsöhbətimiz yaxın gələcəkdəki planlardan da söz açaraq bildirib ki, məktəb beynəlxalq layihələrin coğrafiyasını genişləndirmək niyyətindədir: “Biz bu istiqamətdə Almaniya mərkəzli beynəlxalq Einstein Olimpiadasının da yaxın zamanda Naxçıvanda keçirilməsini nəzərdə tuturuq. Məqsədimiz regionu beynəlxalq intellektual yarışların keçirildiyi mühüm təhsil məkanına çevirməkdir”.

Seçim mərhələsini uğurla başa vuran şagirdlər artıq müxtəlif ölkələrdən olan həmyaşıdları ilə daha genişmiqyaslı bilik yarışına hazırlaşırlar. Bu nəticə göstərir ki, Naxçıvan məktəbliləri beynəlxalq arenada öz sözlərini deməyə qadirdirlər.

Bu nailiyyət Naxçıvan təhsilinin müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdiyini, beynəlxalq rəqabət mühitində layiqli yer tutmaq gücünə malik olduğunu göstərən önəmli göstəricilərdən biridir. Gənc nəslin əldə etdiyi hər bir uğur regionun intellektual potensialının zənginliyini nümayiş etdirməklə yanaşı, gələcəkdə daha böyük zəfərlərin qazanılacağına da inam yaradır. Bu cür nəticələr həm də onu göstərir ki, düzgün qurulmuş təhsil strategiyası və peşəkar pedaqoji yanaşma sayəsində Naxçıvan yaxın illərdə beynəlxalq təhsil məkanında daha parlaq uğurlara imza atа bilər.

Əldə olunan bu nəticə həm də gələcək nəsillərin daha böyük hədəflərə doğru inamla irəliləməsinin rəmzi kimi dəyərləndirilir. Çünki bu gün qazanılan hər bir uğur sabah Naxçıvanın adının beynəlxalq elm və təhsil arenasında daha geniş səslənməsinə xidmət edir.

✍ Elnurə CƏFƏROVA

## Müsabiqə qalibləri mükafatlandırılıb



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin şagirdləri arasında təşkil edilən Muxtar Respublika Müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilib.

Əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini icra edən Həsən Seyidov qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə mədəniyyətimiz dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmiş, sənət adamlarına, yaradıcı gənclərə, xüsusilə uşaqlara hər zaman xüsusi diqqət göstərilmişdir. Məhz bu siyasətin real nəticəsidir ki, bu gün Naxçıvan Muxtar Respublikasında 26 musiqi təhsili müəssisəsi, Naxçıvan Dövlət Uşaq Filarmoniyası, Uşaq Teatrı, həmçinin Kukla Teatrı uğurla fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədov bildirib ki, müsabiqənin əsas məqsədi uşaq musiqi və incəsənət məktəblərində təhsil alan şagirdlərin ifaçılıq qabiliyyətlərinin aşkarlanması, onların yaradıcı potensialının inkişaf etdirilməsidir.

Sonra qaliblərin mükafatlandırma mərasimi keçirilib. Tədbirdə, həmçinin ötən il ölkəmizdə keçirilən Uşaq İncəsənət Festivalında iştirak edərək yer tutan, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən musiqi təhsili müəssisələrinin şagirdləri və kollektivləri, eləcə də, “Konstitusiya və Suverenlik İli” çərçivəsində nazirliyin təşkilatçılığı ilə keçirilən Vətənpərvərlik mahnıları (marşları) ifaçılığı müsabiqəsinin qalibləri də təltif ediliblər.

Sonda qalib şagirdlərin ifalarında konsert proqramı təqdim olunub.


## Elan

“Babək Sirab” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə çatdırılır ki, 19.05.2026-cı il tarixdə saat 14$^{00}$-da “Babək Sirab” Açıq Səhmdar Cəmiyyətinin Babək rayon Sirab kəndində yerləşən inzibati binasında səhmdarların yığıncağı keçiriləcəkdir.

### *İtmişdir*

Babək rayonu, Qahab kənd sakini Əliyev Hicran Qasım oğlunun adına olan JN-442$^{A}$ nömrəli, 10306018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dizə kəndində Əlverdiyev Vilayət Fərrux oğlunun adına olan JN-071$^{D}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kəndində yaşamış Abbasov Tahir Musa oğlunun adına olan JN-600$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kəndində yaşamış Əliyev Cabbar Məmməd oğlunun adına olan JN-97$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Heydər Əliyev prospektində (Azadlıq prospekti) Qarayev Seyfəddin Fərhad oğlunun adına olan qeyri-yaşayış binasının 77 nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayon sakini Abbasov Mehman Murtuz oğlunun adına olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusuna məxsus AD-0062097 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində Səfərova Tünzalə Qüdrət qızının (ailə üzvləri ilə birlikdə 5 nəfər) adına olan JN-1476$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Yurdçu kənd sakini Rəhimov Rəhim Yusif oğlunun adına olan JN-269$^{A}$ nömrəli, 10209028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbəsində yaşamış Əlişov Əsgər Hüseyn oğlunun adına olan JN-502$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış Bayramov Səfiyar Bilal oğlunun adına olan JN-594$^{A}$ nömrəli 10311018 kodlu və JN-594$^{B}$ nömrəli 10311018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Düylün kəndində yaşamış Kazımov Mirzə Məhəmməd oğlunun adına olan JN-284$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Şirəliyev Mütalib Məmmədəli oğluna məxsus JN-553$^{C}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kəndində yaşamış İbrahimov Həsən Abbas oğlunun adına olan JN-273$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qıvraq qəsəbə sakini Qasımov Turan Kərəm oğlunun adına olan A-023242 seriya nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində Əliyev İlqar Əli oğlunun adına olan JN-1245$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 98

Nömrəyə məsul: Ramiyə Əkbərova, Səmayə Rəsulova, Günay Hacıyeva
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.